“Azərbaycanda Gender Bərabərliyi və Media Azadlığı” layihəsi

# “GENDER BƏRABƏRLİYİ VƏ MEDİA AZADLIĞI”

## kursu üzrə

# P R O Q R A M

## JURNALİSTİKA FAKÜLTƏSİ

Bakı Dövlət Universiteinin Jurnalistika fakültəsinin Elmi Şurasının 2019-cu il 14 fevral tarixli iclasının (4 saylı protokol) qərarı ilə çap olunur.

*Bu sənəd Avropa Şurasının “Azərbaycanda gender bərabərliyi və media azadlığı” layihəsi çərçivəsində hazırlanmışdır. Burada ifadə olunan fikirlər heç bir halda Avropa Şurasının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.*

*@ Avropa Şurası, 2019-cu il*

**Tərtibçilər:**

Aynur Bəşirli, siyasi elmlər üzrə fəlsəfə doktoru, media ekspert

Sevinc Əliyeva, filologiya üzrə fəlsəfə doktoru, dosent, Bakı Dövlət Universiteti

Gülnaz Ələsgərova, hüquq üzrə fəlsəfə doktoru, dosent əvəzi, Bakı Dövlət Universiteti

Şəfəq Mehrəliyeva, ADA Universiteti, İctimai və Beynəlxalq Münasibətlər fakültəsinin müəllimi

Ələsgər Məmmədli, media hüququ üzrə ekspert

**Rəyçi :** Dr Krisztina Rozgonyi, Vyana Universitetinin müəllimi

## 1. Kursun predmeti və məqsədi

Gender və qadın problemləri, gender stereotipləri və media kursun predmeti kimi müəyyən olunur.

“Gender bərabərliyi və media azadlığı” kursunun məqsədi aşağıdakılardır:

- Gender bərabərliyinin və media azadlığının fundamental məsələləri barədə tələbələrdə təsəvvür yaratmaq, plüralizm, müstəqillik və təhlükəsizlik daxil olmaqla media azadlığına gender perspektivindən yanaşmanı təşviq etmək;
- İnsan hüquqlarının Avropa standartları, bu sahədə milli qanunvericilik və praktika ilə tələbələri tanış etmək;
- Azərbaycanda gender bərabərliyinin mövcud durumunu media azadlığı prizmasından təqdim etmək;
- Cəmiyyətdə və mediada mövcud sosial gender stereotip və normaları, cinsiyyətçi yanaşmaları təhlil etmək üçün tələbələrə tənqidi düşüncə aşılamaq.

## 2. Kursdan gözlənilən nəticə

Kursun sonunda tələbələr gender və gender bərabərliyi konsepsiyaları, onların dünyada və Azərbaycanda keçdiyi tarix inkişaf yolu, gender bərabərliyinə müasir yanaşmalar, o cümlədən media azadlığının bütün komponentlərinə gender perspektivindən hərtərəfli yanaşma ilə tanış olacaqlar. Tələbələr gender bərabərliyinin beynəlxalq səviyyədə və Azərbaycanda hüquqi aspektlərini öyrənəcəklər. Onlar mediada gender stereotipləri barədə mühakimə yürütməklə yanaşı, medianın bu stereotiplərdən və cinsiyyətçi yanaşmadan uzaq durması üçün istifadə etdiyi alətləri tətbiq edə biləcəklər.

## 3. Kursun nəzəri və praktik əhəmiyyəti

Tələbələr gender bərabərliyi və media azadlığının prinsipləri ilə tanış olaraq ölkə mediasında onlara nə dərəcədə əməl olunduğunu araşdıra biləcək, jurnalist kimi fəaliyyətlərində kursdan qazandıqları bilikləri tətbiq edə biləcəklər.

## 4. Ədəbiyyat siyahısı

### *Azərbaycan dilində*


1. Abasov Ə., Mirzəzadə R., Genderə giriş. "Gender və İnsan Hüququ" Araşdırma Birliyi. Bakı: 2004, 120 səh.
2. Azərbaycanda qadınlar və kişilər 2018. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı: 2018. 204 səh. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/
3. Ayrı-seçkilik əleyhinə Avropa hüququ üzrə məlumat kitabı. Fundamental Hüquqlar üzrə Avropa İttifaqı Agentliyi, Avropa İnsan Hüquqları Məhkəməsi, Avropa Şurası. Bakı: “Aypara” Nəşriyyyat evi, 2014. 204 səh. https://fra.europa.eu/sites/default/files/fra_case_law_handbook_az.pdf
4. Azərbaycan. Ölkə üzrə gender qiymətləndirilməsi. Asiya İnkişaf Bankı, Mərkəzi və Qərbi Asiya Regional Departamenti və Regional və Davamlı İnkişaf Departamenti.

Bakı: dekabr 2005. 132 səh. https://www.adb.org/sites/default/files/institutional-document/32448/cga-azerbaijan-az.pdf

5. Bayramova P. Azərbaycan Respublikasının qanunvericiliyinin BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyaya uyğunluğunun təhlili. Bakı, 2012.
6. Birləşmiş Millətlər Təşkilatının insan hüquqlarının müdafiəsi mexanizmləri. Vəsaitlər toplusu, Bakı 2012. http://unazerbaijan.org/wp-content/uploads/2018/04/Birləşmiş-Millətlər-Təşkilatının-insan-hüquqlarının-müdafiəsi-mexanizmləri.pdf
7. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası Qanununun təhlili. Bakı: 2014. 15 səh. http://labourrights-az.org/wp-content/uploads/2014/10/Gender_beraberliyi_tehlil.pdf
8. Gender problemi və müasir Azərbaycan. Respublika elmi konfransının materialları. Bakı, 25 noyabr 2017.
9. Hicran Hüseynova, Əmir Əliyev, Pərvanə Bayramova, Əliməmməd Nuriyev, Elgün Səfərov, Aydın Səfixanlı, Qulamhüseyn Əlibəyli. Qadın hüquqlarının müdafiəsi: beynəlxalq və milli aspektlər. Dərs vəsaiti. Bakı: 2018. 188 səh. http://www.scfwcp.gov.az/store/media/NewFolder/Kitab%20Son%20.pdf
10. Qadın Hüquqları üzrə Bələdçi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi. Bakı: 2012. 204 səh.
11. Qasımova A. XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatında qadın problemləri (1901-1917). Bakı: Adiloğlu, 2010. 168 səh.
12. Quluzadə Z. Gender Azərbaycanda. Гендер в Азербайджане. Gender in Azerbaijan. Bakı: 2003.
13. İbrahimbəyova R., Axundova S., Mikayılova Ü. Qadınlar siyasətdə. Bakı: 2008. 168 səh.
14. İbrahimova G.İ. XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti: Siyasi elm. dok. ... dis. avtoref. Bakı: 2011.
15. Uşaqların hüquqları və jurnalistika praktikası. Hüquqlara əsaslanan perspektiv. BMT Uşaq Fondu, Dublin Texnologiya İnstitutu. Bakı: 2007. 84 səh. http://elibrary.bsu.az/books_135/N_43.pdf

***İngilis dilində***

1. Baehr, H. The liberated women in television drama. In H. Baehr (Ed.), Women and media. Oxford: Pergamon, 1980.
2. Bayramova, P. Report on Barriers, remedies and good practices for women's access to justice in Azerbaijan. Council of Europe, 2015. https://rm.coe.int/azerbaijan-barriers-remedies-and-good-pratices/168075fd51
3. Brown, V., 5.Geis, F. L., Jenning, J. & Porter, N. (1984). TV commercials as achivement seripts for women. Sex Roles, 10 (7/8), 513-525.
4. Caitlin Elizabeth Ring, Hate Speech in Social Media: An Exploration of the Problem and Its Proposed Solutions (2013). University of Colorado, Boulder CU Scholar.

5. Chandler, D. (1998). Television and Gender Roles. (Online). http://www.aber.ac.uk/ednwww/undergradlED30520/gender tv.html
6. Cynthia Carter, Linda Steiner. Critical readings. The Media and Gender Reader. Open University Press, 2003.
7. Gender Attitudes in Azerbaijan: Trends and Challenges, Azerbaijan Human Development Report 2007, UNDP. 110 pages. http://hdr.undp.org/sites/default/files/nhdr2007gendereng.pdf
8. Handbook on European Non-Discrmination Law (2010). https://www.echr.coe.int/Documents/Handbook_non_discri_law_ENG.pdf
9. Julia T. Gendered Media: The Influence of Media on Views of Gender,. Wood, 2012.
10. Mesquita, J. B., Bayramova, P., Rumzada, R. An Assessment of the Legal and Policy Framework on Women's Sexual and Reproductive Health and Rights (SRHR) in the Republic of Azerbaijan, Baku, 2015. http://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/A4_eng.pdf
11. Nittle, N. K. What Is a Stereotype? http://goo.gl/HFzpLw, Erişim Tarihi: 30 Ekim 2014.
12. Raewyn Connel and Rebecca Pearse. (2015). Gender in World Perspective (Third Edition).
13. Steranger Charles, Shaller Mark, Stereotypes and Prejudice, California, 2000.

***Rus dilində***

1. Гендерные проблемы в сельском хозяйстве Азербайджана. Гендерное равенство, социальная защита и развитие сельских регионов: взгляд из Восточной Европы и Центральной Азии. Будапешт: 2016, с. 9-13.
2. Грошев И.В. Гендерные образы рекламы // Вопросы психологии. 2000. № 6. С. 38-49.
3. Клименкова Т.А. Перестройка как гендерная проблема // Клименкова Т.А. Женщина как феномен культуры. Взгляд из России. М.: Преображение, 1996. с. 117-138.
4. Коган И.Л. Гендерная культурология: культура пола и пол культуры. Минск: Ковчег, 2003. 336 с. http://nashaucheba.ru (дата обращения: 2.04.2014).
5. Роль женщины в гендерных отношениях. Səma Sky, buraxılış 1. Bakı: 2016, s. 21-23.
6. Титер Дж.Э. Мировая политика с гендерных позиций. М.: Культурная революция, 2007. 365 с.
7. Фомичева И.Д. Социология СМИ: учеб. пособие для студентов вузов. М.: АспектПресс, 2007. 335 с. http://yanko.lib.ru/books/smi/fomicheva-soc_smi-2007-ann.htm#_Toc204414028

***Türk dilində***

1. Barendt, Eric., Hitchens, Lesley. Medya Hukuku. London: 2013. 686 səh.
2. Bilgin, N. Sosyal bilimler kavsağında kimlik sorunu. İzmir: Ege, 1994.
3. Media etikası. Media Hüququ İnstitutu. Bakı: Qanun, 2008. 276 səh.
4. Mehmetzade M.B. Kadınlara hürriyet // "Azerbaycan", Ankara, mart 1954, sayı: 12 (24), s. 2-4.
5. Monica Macovei. İfade Özgürlüğü, İnsan Hakları el kitapları. Vəsait, No.2: http://www.inhak.adalet.gov.tr/inhak_bilgi_bankasi/el_kitaplari/ifade_ozgurlugu.pdf

6. Mustafa Erdoqan. Demokratik Toplumda İfade Özgürlüyü: Özgürlukçü Bir Perspektiv. Liberal Düşünce. Ankara, Güz-2001, sayı 24.

7. **Tədris proqramının təyinat istiqaməti**
Bu tədris proqramı ali məktəblərin magistr pilləsində təhsil alan tələbələr üçün hazırlanıb.

8. **Tədris olunan fənnin əhəmiyyətlilik dərəcəsi (əsas, yaxud seçmə kurs)**
"Gender bərabərliyi və media azadlığı" kursu seçmə fəndir.

9. **Tədris metodları**
İnteraktiv tədris zamanı tələbələr mühazirələrlə tanış olacaq, mövzunun xarakterinə uygun çarxlar, video materiallar izləyəcək, araşdırmalar aparacaq, praktik tapşırıqları yerinə yetirəcəklər.

**8. Həftə-semestr ərzində dərslərin sayı**
"Gender bərabərliyi və media azadlığı" fənni II kursun I semestrində keçirilir. Kurs 30 saat əsas, 1 saat məsləhət saatı daxil olmaqla cəmi 31 saat tədris olunacaqdır. 30 əsas saat həftədə bir dəfə 2 saat olmaqla 15 həftə keçiriləcəkdir. Bu saatlar 16 saat mühazirə, 14 saat məşğələ şəklində bölünəcəkdir.

**9. İmtahana buraxılmaq üçün əsas meyarlar. Qiymətləndirmə**
***a) Fənn üzrə imtahan***
Fənn üzrə imtahan ümumi balların 60 faizini təşkil edir. İmtahan semestr ərzində iki dəfə keçirilir və faizlər aşağıdakı qaydada bölünür:
- *aralıq imtahan - 20%;*
- *yekun imtahan - 40%*

***b) Cari qiymətləndirmə***
Cari qiymətləndirməyə 30 faiz ayrılır. Bu qiymətləndirmə esse üzrə təqdimat, müzakirə və müdafiədən yığılır. Semestr ərzində tələbəyə müzakirə və təqdimat üçün esse üzərində işləmək tapşırılır. Esse yekun imtahanına qədər təqdim edilməlidir.
Tələbənin auditoriyada hər bir cavabı, təqdimatı, yerinə yetirdiyi tapşırıq 0-10 ballıq sistem üzrə qiymətləndirilir. Yekun balı hesablamaq üçün semestrin sonunda bu ballar toplanılır, onların cəmi cavabların sayına bölünür, alınan rəqəm dərslərdə fəallığa 30 faiz ayrıldığına görə 3-ə vurulur.

***c) Davamiyyət***
Tələbənin davamiyyətinə 10 faiz ayrılır.

| **N** | **Ballar** | **qiymət** | **Kateqoriya** | **G.P.A.** |
|---|---|---|---|---|
| 1 | 0-50 | qeyri-kafi | F | 0 |
| 2 | 51-60 | qənaətbəxş | E | 0,5 |
| **3** | **61-70** | **Kafi** | **D** | **1** |
| 4 | 71-80 | Yaxşı | C | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 5 | 81-90 | çox yaxşı | B | 3 |
| 6 | 91-100 | əla | A | 4 |

***Yekun imtahanın xarakteristikası***

*Yekun imtahanda hər tələbəyə 5 sualdan ibarət 1 bilet təqdim olunur. Hər sual maksimum 10 balla, səhv cavablar 0 balla qiymətləndirilir.*

**Mövzu 1. Gender və gender bərabərliyi anlayışları**

*Gender anlayışına tarixi və nəzəri baxış. Gender əsaslı təfəkkür nə deməkdir? Biosiyasətin ictimai ierarxiyalarda yer alması üçün tənqidi düşüncə tərzi. Bərabərlik nədir? İnsan hüquqlarının qəbul edilmiş təyinləri, birbaşa və dolayı ayrı-seçkilik, pozitiv ayrı-seçkilik, gender bərabərliyi insan hüquqları prizmasından*

"Gender bərabərliyi və media azadlığı" kursunun ilk mövzusu "gender" və "gender bərabərliyi" anlayışlarının aydınlaşdırılmasına həsr ediləcəkdir. Tələbələr feminist tarix və nəzəriyyə daxil olmaqla genderin tarixi və nəzəri təkamülü ilə tanış olacaq, bu təkamül prosesinin ictimaiyyətdə gender əsaslı təfəkkürün formalaşmasına təsirini öyrənəcəklər. Bu mövzu vasitəsilə onlar keçmiş və müasir düşüncənin həm konseptual, həm də struktur elementlərinə meydan oxuyan kritik bir anlayış kimi genderin daha geniş ictimai aspektlərinə nüfuz edəcək, gender əsaslı yanaşma üçün tənqidi düşüncə tərzini inkişaf etdirəcəklər. Gender bərabərliyinin siyasi inkişaf yolu və onun geniş təsiri müzakirə olunduqdan sonra "bərabərlik" anlayışı açıqlanacaq, bu anlayış prizmasından differensasiya və ayrı-şeçkiliyin mahiyyəti, habelə pozitiv ayrı-seçkilik izah olunacaqdır. Gender bərabərliyinin cəmiyyətin müasirlik göstəricisi kimi insan hüquqları kontekstində yeri müəyyən ediləcəkdir.

Mövzu çərçivəsində qadınların əhali qrupu olaraq cinsi mənsubiyyət əsasında hansı ayrı-seçkiliyə uğradığı öyrəniləcək, çağdaş cəmiyyətlərdə fundamental insan hüquqları debatının qadınların sosial, iqtisadi və siyasi vəziyyətini necə dəyişə biləcəyi araşdırılacaqdır. Bu mövzuya aid ictimai müzakirələrdə irəli sürülən əsas arqumentlər – kişilər və qadınlar arasında əmək haqqı fərqi, qadınların qərarverici məqamlarda nisbətən az təmsil olunması, cinsi mənsubiyyətin əyləncə mədəniyyətində istismarı, uşaq planlaşdırmaya təsiri, qadınlara qarşı zorakılıq kimi hallar təhlil olunacaqdır. İnsan hüquqları müdafiəsinin sosial dəyişikliklərə gətirib çıxaran bir siyasi alət kimi strateji rolu dəyərləndiriləcəkdir.

**Ədəbiyyat siyahısı**


1. Avropa İnsan Hüquqları Konvensiyası (1950). https://www.echr.coe.int/Documents/Convention_AZE.pdf
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. http://www.e-qanun.az/code/10
3. Beauvoir, Simone de. The Second Sex. First Vintage Books Edition, May 2011. https://uberty.org/wp-content/uploads/2015/09/1949_simone-de-beauvoir-the-second-sex.pdf
4. Butler, Judith. Gender Trouble: Feminism and the Subversion of Identity. New York, 1990.
5. Gender: A Useful Category of Historical Analysis. Author(s): Joan W. Scott Reviewed work(s): Source: The American Historical Review, Vol. 91, No. 5 (Dec., 1986), pp. 1053-1075

6. Gender Theory. Encyclopedia of European Social History. Encyclopedia.com. https://www.encyclopedia.com/international/encyclopedias-almanacs-transcripts-and-maps/gender-theory
7. Gender Attitudes in Azerbaijan: Trends and Challenges, Azerbaijan Human Development Report 2007, UNDP. 109 pages. http://hdr.undp.org/sites/default/files/nhdr2007gendereng.pdf
8. Gender bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu. 10 oktyabr 2006-cı il.
9. Gender in World Perspective (Third Edition), Raewyn Connel and Rebecca Pearse, 2015.
10. Handbook on European Non-Discrmination Law (2010). 154 pages. https://fra.europa.eu/sites/default/files/fra_uploads/1510-FRA-CASE-LAW-HANDBOOK_EN.pdf

**Tapşırıq 1**
Səudiyyə Ərəbistanında qadınların avtomobil idarə etməsinə icazə verən qanunu müzakirə edin. Müsbət cəhətlərlə yanaşı, avtomobil konstruksiyasının bir gender obyekti kimi daha geniş təsirlərinə tənqidi düşüncə tərzi ilə baxın.

Mənbə:
www.bbc.com/azeri/international-41410767-
www.nytimes.com/2018/06/22/world/middleeast/saudi-arabia-women driving.htmlwww.autolife.umd.umich.edu/Gender/Walsh/G_Overview2.htm

**Tapşırıq 2**
Avropa İnsan Hüquqları Konvensiyası və Gender bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu ilə tanış olun. Azərbaycanda insan hüquqları prizmasından çıxış edərək qadın hüquqlarının təmini üçün qanunverici bazanı əsaslandıran məqalə üzərində işləyin.
Mənbə:
https://www.echr.coe.int/Documents/Convention_AZE.pdf
http://www.e-qanun.az/framework/12424

## Mövzu 2. Media azadlığı və medianın cəmiyyətdə rolu

*Medianın demokratik cəmiyyətdəki rolu, medianın təməl funksiyaları, informasiya təminatında medianın yeri, idarəetməyə nəzarət baxımından medianın dördüncü hakimiyyət kimi fəlsəfəsi, İfadə azadlığı anlayışı içərisində media azadlığının yeri, media azadlığı, plüralizm, müstəqillik və təhlükəzisliyə gender perspektivindən baxış, beynəlxalq və milli qanunvericilikdə media azadlığını təmin edən sənədlər*

Cəmiyyətin demokratik dəyərlər üzərində formalaşması baxımından azad media böyük önəm daşıyır. Mövzu çərçivəsində media azadlığının mahiyyəti müxtəlif rakurslardan açıqlanacaqdır: medianın siyasi və iqtisadi azadlığının zəruri elementləri, onların media müstəqilliyinin təminatında rolu izah olunmaqla yanaşı, eyni zamanda media azadlığının sütunları sayılan plüralizm, müstəqillik və təhlükəsizlik üzərində xüsusi dayanılacaq, onlara gender perspektivindən qiymət veriləcəkdir. Tələbələr medianın azadlığı, müstəqilliyi,

plüralizmi və jurnalistlərin təhlükəsizliyi barədə çağdaş təmayüllərlə yanaşı, ifadə azadlığı və media inkişafı sahəsində dünya trendləri ilə tanış olacaqlar.

Tələbələrə media azadlığını təmin etmək üçün dövlətin yaratdığı hüquqi mühitin vacibliyindən bəhs ediləcək, bu mənada Avropa Şurasının üzvü olan 47 ölkədən biri kimi Azərbaycanın milli hüququnun mənbələri arasında beynəlxalq hüquqi aktların oynadığı müstəsna rol izah ediləcəkdir. Media azadlığının hüquqi təminatı olan beynəlxalq normalar, xüsusilə BMT-nin Mülki və siyasi hüquqlara dair Paktının 19-cu maddəsi, onun tətbiqi, Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin əhatəsi və Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin həm azadlıqlar, həm də məhdudiyyətlər baxımından tətbiqi çərçivəsində Avropa İnsan Hüquqları Məhkəməsinin president hüququna dair məlumatlar qiymətləndiriləcəkdir.

Eyni zamanda media azadlığının yerli qanunvericilikdə təminatı, Azərbaycan Konstitusiyasının 47-ci, 50-ci maddələrində müəyyən edilmiş söz və ifadə azadlığı, məlumat azadlığı, KİV azadlığı və dövlət senzurasının yolverilməzliyinə dair əsas prinsiplər, habelə beynəlxalq aktların hüquqi qüvvəsini tənzimləyən 151-ci maddə, hüquq və azadlıqların təminatını göstərən 71-ci maddənin mahiyyəti, xüsusilə KİV haqqında qanunvericiliyin mahiyyəti açıqlanacaqdır. KİV-in (qəzetlərin, jurnalların, informasiya agentliklərinin, televiziya və radioların, kinoxronika proqramlarının, internetin) təsis olunması və fəaliyyəti, jurnalistlərin azadlığı, peşə standartları, hüquq və vəzifələri, mənbələrin gizliliyinin qorunması, KİV-in məsuliyyəti, jurnalistlərin azadlığına qanunsuz müdaxilə zamanı yarana biləcək hüquqi, habelə cinayət, inzibati, mülki məsuliyyət formaları izah ediləcəkdir.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikası Konstitusiyası. http://www.e-qanun.az/framework/897
2. Barendt, Eric., Hitchens, Lesley. Medya Hukuku. London: 2013. 686 səh.
3. Birləşmiş Millətlər Təşkilatının insan hüquqlarının müdafiəsi mexanizmləri. Vəsaitlər toplusu. Bakı: 2015. 186 səh.
4. Bychawska-Siniarska D. A Handbook for Legal Practitioners. Council of Europe, 2017. https://rm.coe.int/handbook-freedom-of-expression-eng/1680732814https://intranet.coe.int/en/group/portal/home/
5. Gün işığı bələdçisi. Media Hüququ İnstitutu, ATƏT Media Azadlığı Ofisi. Bakı: 2006. 286 səh.
6. Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikası Qanunu: http://www.e-qanun.az/framework/30
7. McGonagle T. Freedom of expression and defamation. https://book.coe.int/eur/en/human-rights-and-democracy/7072-freedom-of-expression-and-defamation.html
8. Media hüququ: Jurnalislərin hüquq bələdçisi. Media Hüququ İnstitutu. Bakı: 2011. 432 səh.
9. Monica Macovei. İfade Özgürlüğü, İnsan Hakları el kitapları. Vəsait, No.2: http://www.inhak.adalet.gov.tr/inhak_bilgi_bankasi/el_kitaplari/ifade_ozgurlugu.pdf
10. Mustafa Erdoqan. Demokratik Toplumda İfade Özgürlüyü: Özgürlukçü Bir Perspektiv. Liberal Düşünce. Ankara, Güz-2001, sayı 24.
11. Recommendation CM/Rec(2016)4 on the protection of journalism and safety of journalists and other media actors. https://www.coe.int/en/web/freedom-expression/committee-of-ministers-adopted-texts/-/asset_publisher/aDXmrol0vvsU/content/recommendation-cm-rec-2016-4-of-the-committee-of-ministers-to-member-states-on-the-protection-of-journalism-and-safety-of-journalists-and-other-media-?inheritRedirect=false

12. Recommendation CM/Rec(2018)1 of the Committee of Ministers to member States on media pluralism and transparency of media ownership. https://rm.coe.int/1680790e13
13. Tobi Mendel. İfadə Azadlığı Avropa İnsan Hüquqları Avropa Konvensiyasının 10-cu maddəsinin şərhi və məzmunu üzrə bələdçi. Bakı: 2012. 88 səh.
14. World Trends in Freedom of Expression and Media Development: Global Report 2017/2018. https://unesdoc.unesco.org/ark:/48223/pf0000261065

**Tapşırıq**
Avropa İnsan Hüquqları Məhkəməsinin 18 dekabr 2008-ci il tarixli Rövşən Mahmudov və Yaşar Ağazadə Azərbaycana qarşı qərarı (Strasburq, Ərizə No 35877/04) ifadə və media azadlığı aspektindən müzakirə edilmək üçün öyrəniləcəkdir. Müzakirə zamanı auditoriya iki qrupa bölünəcək. Birinci qrup jurnalistlərin, ikinci qrup dövlətin mənafeyinin müdafiəsi üçün arqumentlərini səsləndirəcək və mövqelərini Konvensiyanın praktik tətbiqi aspektindən əsaslandıracaqdır.

Mənbə:
http://academy-justice.gov.az/aihm/31.pdf

**Mövzu 3. Gender bərabərliyinin hüquqi aspektləri: beynəlxalq təcrübə və Avropa Şurasının standartları**

*Gender bərabərliyi hüquqi anlayış kimi. Gender bərabərliyinin sosial ədalət və media azadlığı ilə əlaqəsi*

Gender bərabərliyi hüquqi anlayış kimi Avropa məkanında önə çıxdıqdan sonra bu hüququn təminatı üçün çoxsaylı beynəlxalq təşəbbüslər olub. Bu təşəbbüslərin bir çoxu müəyyən standartların formalaşması ilə yekunlaşıb. Bu mövzu çərçivəsində gender bərabərliyinin hüquqi aspektləri beynəlxalq təcrübə və Avropa Şurasının standartları nəzərə alınmaqla öyrəniləcəkdir.

Avropanın 47 ölkəsində insan hüquqlarının baza sənədi olan Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsi, habelə 12 saylı Protokolunun 1-ci maddəsində nəzərdə tutulan ayrı-seçkiliyə ümumi qadağanın mahiyyəti açıqlanacaq, qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadə zamanı digər ayrı-seçkiliklərlə yanaşı, cinsi ayrı-seçkiliyin yolverilməzliyi izah ediləcəkdir. Bu zaman AŞ-nin yarandığı gündən etibarən qəbul etdiyi aşağıda adları göstərilən sənədlər haqqında ayrıca məlumat veriləcəkdir:

- *Avropa Şurası Nazirlər Komitəsinin üzv dövlətlərə gender bərabərliyi və media üzrə Tövsiyəsi CM/Rec(2013)1;*
- *Avropa Şurasının yeni Gender Bərabərliyi Strategiyası 2018-2023;*
- *Avropa Şurasının Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Konvensiyası (CETS No. 210, "İstanbul Konvensiyası 2011-ci il);*
- *Avropa Şurasının İnsan alveri ilə mübarizə haqqında Konvensiyası (CETS No. 197, 2005-ci il);*
- *Avropa Şurası Parlament Assambleyasının Siyasi hüquqlar və qadınların vəziyyəti haqqında Qətnaməsi (1975-ci il);*

- *Qadınların və kişilərin siyasi və ictimai qərarların hazırlanmasında balanslı iştirakı haqqında Avropa Şurasının Nazirlər Komitəsinin CM/Rec(2003)3 saylı Tövsiyəsi və izahedici Memorandumu;*
- *Avropa Şurası Parlament Assambleyasının Qadın və kişilərin bərabərliyi haqqında Qətnaməsi (1986-ci il);*
- *Avropa Şurası Nazirlər Komitəsinin Gender bərabərliyi üzrə standart və mexanizmlərə dair Tövsiyəsi CM/Rec(2007)17;*
- *Avropa Şurası Nazirlər Komitəsinin gender bərabərliyinin reallaşdırılması haqqında Bəyannaməsi (2009);*
- *Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 20 oktyabr 2016-cı il tarixdə qəbul etdiyi Qadınların yerli və regional səviyyədə siyasi iştirakı və təmsilçiliyinə dair 390(2016) Tövsiyəsi;*
- *Avropa Şurası Nazirlər Komitəsinin Cinsiyyətçiliyin qarşısının alınması və onunla mübarizəyə dair Tövsiyəsi (27 mart 2019-cu il, CM/Rec(2019)1).*

Demokratik cəmiyyətlərin formalaşması və inkişafı üçün mediada qadın və kişilərin bütün fərqlilikləri ilə real şəkildə əks olunmalarının vacibliyini şərtləndirən amillər Avropa Şurası Nazirlər Komitəsinin medianın fərqli sferaları üçün qəbul etdiyi tövsiyələr (*İnternet istifadəçiləri üçün İnsan Hüquqları Bələdçisinə dair Nazirlər Komitəsinin üzv dövlətlərə Tövsiyəsi (CM/Rec(2014)6), İnformasiya cəmiyyətində ictimai medianın (ictimai yayımın) səlahiyyətlərinə dair Tövsiyə (CM/Rec(2007)3), Media plüralizmi və media məzmununun müxtəlifliyinə dair Tövsiyə (CM/Rec(2007)2)* prizmasından təhlil ediləcəkdir.

Üzv dövlətlərdə gendər bərabərliyinin təmini üçün zəruri sənədlərdən sayılan AŞ NK-nın 2007-ci ildə qəbul etdiyi Gender bərabərliyi üzrə standart və mexanizmlərə dair (Rec(2007)17) Tövsiyəsinin mahiyyəti açıqlanacaq, Nazirlər Komitəsinin gender bərabərliyinin reallaşdırılması haqqında 2009-cu il tarixli Bəyannaməsində xüsusi olaraq vurğulanan media peşəkarları və ümumilikdə kommunikasiya sektorunda qadınların və kişilərin qeyri-stereotip təsvirinin təbliğini stimullaşdırmaq üçün irəli sürülən tədbirlər öyrəniləcəkdir.

Gender bərabərliyinin sosial ədalət və media azadlığı ilə əlaqəsi izah olunacaq, media sahəsində müəyyən edilmiş standartların həyata keçirilməsi zamanı gender bərabərliyinin təminatı üçün Avropa Şurası Nizamnaməsinin 15.*b* maddəsinin şərtlərinə uyğun olaraq Nazirlər Komitəsinin üzv dövlətlərin hökumətlərinə verdiyi tövsiyələr açıqlanacaqdır.

**Ədəbiyyat siyahısı**


**1.** Azərbaycan Respublikasının “Qadınların siyasi hüquqları haqqında” Konvensiyaya qoşulması barədə Azərbaycan Respublikası Milli Məclisinin Qərarı: http://www.e-qanun.az/framework/7581
2. Avropa Şurasının “İnsan alverinə qarşı mübarizə haqqında” Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu: http://www.eqanun.az/framework/doc/19607
**3.** Birləşmiş Millətlər Təşkilatının Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyasının Fakultativ Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu: http://www.e-qanun.az/framework/4431
4. Ərdə olan qadının vətəndaşlığı haqqında Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu: http://www.e-qanun.az/framework/4090
5. Qadınlara qarşı zorakılıq və məişət zorakılığının qarşısının alınması və ona qarşı mübarizə haqqında Avropa Şurası Konvensiyası (İstanbul Konvensiyası). Avropa Şurası, təhlil

edilmiş versiya, noyabr 2012. Hilari Fişer (Hilary Fisher) tərəfindən hazırlanıb. http://assembly.coe.int/Communication/Campaign/DomesticViolence/HandbookParliamentarians_AZ.pdf
6. Handbook on the implementation of Recommendation CM/Rec(2013)1 on gender equality and media: https://rm.coe.int/handbook-on-the-implementation-of-recommendation-cm-rec-2013-1-of-the-/16808eb413
7. İnsan alverinə qarşı mübarizə. Dərs vəsaiti. Beynəlxalq Miqrasiya Təşkilatı. Bakı: 2016. 166 səh. http://iom.az/publications/files/HANDBOOK_AZ.pdf
8. "İnsan alverinə və fahişəliyin üçüncü şəxslər tərəfindən istismarına qarşı mübarizə haqqında" Konvensiyanın Yekun Protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu: http://www.e-qanun.az/framework/5547
9. İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası və əlavə Protokollar: https://www.echr.coe.int/Documents/Convention_AZE.pdf
10. Recommendation CM/Rec(2013)1 of the Committee of Ministers to member States on gender equality and media: https://rm.coe.int/recommendation-cm-rec-2013-1-of-the-committee-of-ministers-to-member-s/16808e6ef3
11. Recommendation CM/Rec R(84) 17( 2013)1 of the Committee of Ministers to member States on equality between women and men: https://rm.coe.int/recommendation-no-r-84-17-of-the-committee-of-ministers-to-member-stat/16808e6ef4
12. Recommendation CM/Rec(2019)1 of the Committee of Ministers to member States on preventing and combating sexism: https://rm.coe.int/CoERMPublicCommonSearchServices/DisplayDCTMContent?documentId=090000168093b26a
13. PACE Recommendation 1799 (2007) on the image of women in advertising: https://rm.coe.int/recommendation-1799-2007-of-the-parliamentary-assembly-of-the-council-/16808e6ef2
14. PACE Recommendation on the image of women in the media: https://rm.coe.int/recommendation-1555-2002-of-the-parliamentary-assembly-of-the-council-/16808e6ef1
15. PACE Resolution) 1751 (2010) on Combating sexist stereotypes in the media: https://rm.coe.int/resolution-1751-2001-1-of-the-parliamentary-assembly-of-the-council-of/16808e6ef5

**Tapşırıq**

"İsveçrə: görüşərkən əlini uzatmayan müsəlman cütlüyə vətəndaşlıq verilmədi" məqaləsini oxuduqdan sonra auditoriya say ardıcıllığı ilə təklər və cütlər olaraq iki qrupa bölünür. Birinci qrup – təklər bələdiyyənin mövqeyini müdafiə edərək onun hüquqa, o cümlədən Avropa İnsan Hüquqları Konvensiyasının (AİHK) 14-cü maddəsinə uyğun olduğunu, Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) president hüququ da nəzərə alınaraq üçlü testdən (1.Qanunda nəzərdə tutulubmu? 2. Legitim məqsəd daşıyırmı? 3. Demokratik cəmiyyətdə zərurilik varmı?) keçirir və gender bərabərliyinə hörmətsizliyin yolverilməzliyi prinsipinin üstünlüyünü əsaslandırır. İkinci qrup – cütlər vətəndaşlığı rədd edilən cütlüyün müxtəlif hüquqları aspektindən məsələyə yanaşır və xüsusilə AİHK-nın 9-cu maddəsi (din və vicdan azadlığı), 10-cu maddəsi (ifadə azadlığı), 14-cü maddəsi (ayrı-seçkiliyə məruz qalmama və bərabərlik hüququ) aspektindən öz müdafiəsini qurur. Bu qrup da AİHM-in təcrübəsinə əsaslanaraq arqumentlərini üçlü testdən keçirərək öz mövqeyini əsaslandırır. Müəllim yekunda tərəflərin mövqelərini hüquqi aspektdən qiymətləndirir.

Mənbə:
https://www.bbc.com/turkce/45232111?SThisFB
https://www.telegraph.co.uk/news/2018/08/17/swedish-muslim-wins-case-refusing-handshake-man-job-interview/

**İsveçrə: görüşərkən əlini uzatmayan müsəlman cütlüyə vətəndaşlıq verilmədi**
18 Avqust 2018

İsveçrənin Lozanna şəhərində müsəlman bir cütlük qarşı cinslə əl görüşmədiyi üçün İsveçrə vətəndaşlığına qəbul edilmədi.

Lozanna bələdiyyə sədri Gregorie Junod vətəndaşlığa müraciətin "Gender bərabərliyinə hörmətsizlik" səbəbindən rədd edildiyini söylədi.

Gregorie Junod bələdiyyənin səlahiyyətli şəxslərinin bir neçə ay öncə vətəndaşlıq kriteriyalarına uyğun olub-olmamasını öyrənmək məqsədilə bu cütlüklə görüşdüyünü bildirərək cütlüyün inteqrasiya başlığında geçərli qiymət almadığını söylədi.

Qərar cümə günü ölkə ictimaiyyətinə təqdim edildi.

Bələdiyyə sədri müsəlman cütlüyün "qarşı cinslə əl vermədiyini" söylədi, lakin şəxslərin kim olduğu və hansı ölkə kökənli olduqlarına dair hər hansı bilgi vermədi.
Gregorie Junod: "Şəxslər qarşı cinsin suallarına cavab verərkən də xeyli çətinlik çəkdilər,"- dedi.

Yaxın ailə üzvlərindən başqa, qarşı cinslə fiziki təmasın islam tərəfindən qadağan edildiyi fikrini müdafiə edən müsəlmanlar mövcuddur.

G. Junod, Lozannanı da əhatə edən Vaud Kontonunda din və vicdan azadlığının müqəddəs olduğunu söylədi, ancaq: "Dini praktiklər hüququn çərçivəsindən kənara çıxa bilməz,"- dedi. "Qərar son dərəcə qaneedicidir".

Cütlüklə görüşdə iştirak edən bələdiyyə sədri müavini Pierre-Antoine Hildbrand vətəndaşlığa müraciətə rədd qərarı verilməsini özü üçün "son dərəcə məmnunedici" kimi qiymətləndirdi. Hildbrand: "Konstitusiya və qadın-kişi bərabərliyi fanatizmə üstün gələcəkdir,"- dedi.

Cütlüyün qərarı apelyasiyaya vermək üçün 30 gün vaxtı var.

İsveçrədə əl verməməyə görə daha öncə də gərginlik yaşanmışdı. 2016-cı ildə orta məktəbə gedən 7-ci sinif şagirdləri olan Suriya əsilli iki qardaş qadın müəllimin əlini sıxmaqdan dini səbəblərə görə imtina edəndə məktəb rəhbərliyinin bu vəziyyəti qəbul etməməsi milli səviyyədə ciddi müzakirələrə səbəb olmuşdu. Ölkədə formalaşan ictimai rəydən sonra məktəbin qərarı geri götürülmüşdü.

## Mövzu 4. Gender bərabərliyinin hüquqi aspektləri: Azərbaycan qanunvericiliyi və təcrübə

*Azərbaycan Respublikası Konstitusiyasında gender bərabərliyini təmin edən müddəalar, Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası Qanunu, qüvvədə olan qanunvericilik aktlarının bu qanuna uyğunlaşdırılması prosesi*

Müstəqillik qazandıqdan sonra Azərbaycan milli qanunvericiliyini qoşulduğu beynəlxalq sənədlərin rəhbər prinsiplərini nəzərə alaraq formalaşdırdı. Bu mənada gender bərabərliyi sahəsində qanunivericilik də istisna deyil.
Mövzu çərçivəsində ilk növbədə bərabərlik hüququnun mahiyyəti və Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin 3-cü bəndi ilə gender bərabərliyi hüququnun təməlinin necə qorunması izah olunacaqdır. Bərabərlik hüququnun, o cümlədən gender bərabərliyinin pozulmasının Azərbaycan Cinayət Məcəlləsinin 154-cü maddəsi ilə yaratdığı məsuliyyət, vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə daha ciddi məsuliyyət yaratdığı vurğulanacaqdır.

Gender bərabərliyinə verilən önəmi ifadə edən 10 oktyabr 2006-cı ildə qəbul edilən Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası Qanunu incələnəcəkdir. Qanundan məqsəd, gender bərabərliyi anlayışı, cinsi ayrı-seçkiliyin və cinsi qısnamanın yolverilməzliyi, gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət siyasətinin əsas istiqamətləri və dövlətin vəzifələri, əmək münasibətlərində cinsi ayrı-seçkiliyin qadağan edilməsi, əməyin ödənilməsində bərabərliyin qorunması, təhsil hüququnun reallaşmasında cinsi ayrı-seçkiliyin yolverilməziyi, iqtisadi və sosial münasibətlərdə gender bərabərliyinin təminatları, ictimai-siyasi həyatda, siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının və həmkarlar ittifaqlarının fəaliyyətində gender bərabərliyinin təminatları, eləcə də ayrı-seçkiliyə məruz qalanların uğradıqları zərərin ödənilməsini tələb etmək hüququ və pozanlara tətbiq ediləcək məsuliyyət və bu sahəyə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının məsuliyyəti və hesabatlılığı geniş şərh ediləcəkdir. 2006-cı ildən sonra qanunun qəbulundan keçən dövrdə gender bərabərliyinin təmini və qorunması istiqamətində atılan addımlar, praktik təcrübə geniş izah ediləcəkdir.

Qüvvədə olan qanunvericilik aktlarının Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması prosesi və bu istiqamətdə atılmalı olan addımlar göstəriləcəkdir.

KİV haqqında Qanunun 10-cu maddəsində nəzərdə tutulan sui-istifadənin yolverilməzliyi, Teleradio yayımı haqqında Qanunun 11-ci və 32-ci maddələrində irəli sürülən proqramlara verilən tələblər və ona əməl etmədikdə görüləcək tədbirlər açıqlanacaqdır. İctimai yayım haqqında Qanunda nəzərdə tutulan idarəetmədə qadın iştirakçılığını təşviq edən 17-ci maddənin mahiyyəti, habelə, 8-ci maddədə xüsusi göstəriş olan İctimai yayım xidmətlərində kadrların seçilməsi və əmək müqavilələrinin bağlanması zamanı cinsi ayrı-seçkiliyin qadağan olunmasının zəruriliyi izah ediləcəkdir.

**Ədəbiyyat siyahısı**


1. Azərbaycan Respublikası Konstitusiyası: http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi: http://www.e-qanun.az/code/11
3. Azərbaycan. Ölkə üzrə gender qiymətləndirilməsi. Asiya İnkişaf Bankı, Mərkəzi və Qərbi Asiya Regional Departamenti və Regional və Davamlı İnkişaf Departamenti. Dekabr 2005. https://www.adb.org/sites/default/files/institutional-document/32448/cga-azerbaijan-az.pdf
4. Bayramova P. Azərbaycan Respublikasının qanunvericiliyinin BMT-nin qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyaya uyğunluğunun təhlili. Bakı, 2012.
5. İctimai yayım haqqında Azərbaycan Respublikasının Qanunu: http://www.e-qanun.az/framework/5546

6. Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu: http://www.e-qanun.az/framework/12424
7. Kütləvi İnformasiya Vasitələri haqqında Azərbaycan Respublikası Qanunu: http://www.e-qanun.az/framework/30
8. Qadın Hüquqlarının müdafiəsi: beynəlxalq və milli aspektlər. Bakı: 2018
9. Qadın Hüquqları üzrə Bələdçi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi. Bakı: 2012. 204 səh. http://lawlibrary.info/az/books/GIZ2012-Az-Kitab_Gender.pdf
10. Televiziya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu: http://www.e-qanun.az/framework/1125

**Tapşırıq**
Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2009-cu ildə çəkilmiş "Satılmış həyat" filminə baxdıqdan sonra filmdə qaldırılan problemləri müzakirə edin.

Mənbə:
https://www.youtube.com/watch?v=VdRcDga7i_4

**Mövzu 5. Azərbaycan mediasında qadın hüquqları: tarixi baxış**
**Azərbaycan Xalq Cümhuriyyətində qadın hüquqları**

*Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ərəfəsində ictimai-siyasi fikirdə qadın məsələsi. 28 may 1918-ci il İstiqlal Bəyannaməsi və qadın hüquqları. Azərbaycan Xalq Cümhuriyyətində qadın hüquqlarının təmin edilməsinə yönələn tədbirlər. Cümhuriyyət dövründə mətbuatda qadın hüquqları məsələsi. Şəfiqə Əfəndizadənin yaradıcılığında qadın hüquqları*

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi ərəfəsində ictimai-siyasi fikirdə qadın məsələsi ümdə yerlərdən birini tuturdu. Bunu şərtləndirən amillərdən birincisi XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan maarifçilərinin qadının cəmiyyətdəki yeri və onun hüquqlarına dair baxışlarının ictimai fikirdə geniş yer alması idisə, ikinci amil inqilabi-sosialist ideyaların yayılması, sosial-demokrat qruplarının və dərnəklərinin siyasi fəaliyyətinin aktivləşməsi idi. Mövzu çərçivəsində yuxarıda qeyd olunan amillər öyrəniləcək, qadın məsələsinin mahiyyəti açıqlanacaqdır.

Cümhuriyyətin rəsmən elan olunması faktını özündə əks etdirən, Konstitusiya Aktı rolunu oynayan İstiqlal Bəyannaməsinin 4-cü bəndində təsbit olunan bərabərlik prinsipi həm tarixi, həm də cağdaş dünyanın gerçəklikləri baxımından təhlil olunacaq, bu zaman Cümhuriyyət dövründə qadın hüquqları məsələsinə toxunan qanunvericilik aktlarına nəzər salınacaq, qadınların hüquqlarının təmin olunması üçün atılan real addımlar öyrəniləcəkdir. Bu addımların ədəbi-mədəni mühitin formalaşmasına, qadınların fəallığının artmasına göstərdiyi təsir Ş.Qaspıralı, Ş.Əfəndizadə, E.Yusifbəyli, Ü.Sadıqzadə kimi qadın ziyalıların, xüsusilə Şəfiqə Əfəndizadənin elmi-publisistik və bədii yaradıcılığının örnəkləri əsasında araşdırılacaqdır.

**Ədəbiyyat siyahısı**
1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. Cild I. Bakı: 2004. səh.72-74.
2. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (I kitab. Stenoqrafik hesabatlar). Bakı: “Azərbaycan” nəşriyyatı, 1998.

3. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (II kitab. Stenoqrafik hesabatlar). Bakı: “Azərbaycan” nəşriyyatı, 1998.
4. Азербайджанская Демократическая Республика (1918-1920) Законодательные акты (сборник документов) Баку: Издательство «Азербайджан», 1998. s.401.
5. Дамирли М.А. Организация государственной власти в Азербайджане. 1918-1920 гг. Одесса: «Астропринт», 1998.
6. Əfəndizadə Ş. Seçilmiş əsərləri (1903-1925). Bakı: “Elm və təhsil”, 2017. 426 s.
7. Əzimova A. Cənubi Qafqazın ilk qadın jurnalisti. journalism.bsu.edu.az/az/news/cnub
8. Qasımova A. XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatında qadın problemləri (1901-1917). Bakı: Adiloğlu, 2010. 168 səh.
9. İbrahimova G.İ. XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti: Siyasi elm. dok. ... dis. avtoref. Bakı: 2011.
10. Məmmədzadə M.B. Azərbaycan Milli Xartiyası (28 mayis, İstiqlal Bəyannaməsi) // “Azərbaycan” jurnalı, Bakı, 1991, № 4, s. 132-149.
11. Mehmetzade M.B. Kadınlara hürriyet // “Azerbaycan”, Ankara, mart 1954, Sayı: 12 (24), s. 2-4.
12. Ramazanova S. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadın siyasəti. http://az.strategiya.az/?do=xeber&id=25448
13. Süleymanlı M.A. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı: “Nafta-Press”, 2011, 208 s.

**Tapşırıq**

Şəfiqə Əfəndizadənin "Milli bayram və qadınlarımız" ("Azərbaycan", 5 iyun 1919-cu il, № 196) yazısını oxuyub, həmin dövr üçün tərəqqipərvər ideyaları və çağırışları seçərək onları dünənin və bu günün perspektivindən dəyərləndirin, çağdaş dünyamız və Azərbaycan üçün nə qədər aktual olduğunu təhlil edin.

## Milli bayram və qadınlarımız

**Şəfiqə Əfəndizadə**

**“Azərbaycan”, 5 iyun 1919, №196**

1919 tarixində mayıs 28-də Azərbaycan istiqlaliyyətinin səneyi-dövriyyəsi münasibətilə milli bayram təşkil olunmuşdu. O günün şərəfindən, təsirindən hər kəs şən və məsrur idi.

Məsrur idi, amma bu bayramın hər kəsdən artıq qadınlar tərəfindən fövqəladə bir ruh yüksəkliyilə qarşılandığını o günü küçələrə tökülən qadınların rəftarı sübuta kafidir, zənn edərəm.

Necə ki məbus Əsədulla Əhmədov cənabları Məclisi-Məbusanın o günə məxsus təntənəli iclasında çocuqları qucağında olan qadınların bugünki milli bayrama, bugünki sürur və şadimaniyə iştirak etməklərini tədadla: ittihadla qarşılanan Azərbaycan istiqlaliyyətinin əbədilik olmasına böyük ümidvar olduğunu səmimi olan nitqlərində irad buyurdular.

İllərlə evindən dışarı çıxmayan, yanıbaşında bir-birindən kiçik çocuqlarını güc hal ilə saxlayan, ərkəkləri razı olub da kəndiləri dışarı çıxmağı sevməyən qadınlar, o günü sabah erkəndən çarşabını başına alıb ərkəki ilə evindən çıxan və milli bayramın kəndi iştirakilə müşərrəf olduğunu zənn edənlər axşama qədər deyil, ta gecə yarılarına qədər aclığa baxmayıb, yorğunluğa baxmayıb kəndisini o güruh içərisinə, o təntənə daxilinə atıb qalib bir dövlətin şanlı, müzəffər, qalib əsgəri kibi böyük sevinc və sürur ilə sokaklarda dolaşıyorlardı.

Məəttəəssüf bədbəxt qadınların bugünki birgünlük süruru və şadlığı da üzlərinə qapandı.

Ömrlərində bulvar tamaşası görmədikləri və bundan sonra da görməyi qeyri-qabil olan və ancaq bu günün şərəfinə gündüzü deyil, gecəsinə ərkəkindən bin dürlü vasitələr, rizalarla izn alan qadınlar axşam bulvar tamaşası, həm də böylə təntənəli, dəbdəbəli bulvar tamaşası üçün gündüzdən axşam görəcəyi ləzzətli seyrləri ürək çarpışıyla gözləyən qadınların üzünə bulvar qapısı da bağlandı.

Polis nəfərlərimizin qadınlar üzərinə olan qaba rəftarları Nikolay dövrünün qaradavoylarını xatirə gətiriyordu. Və hamanki qəlblərdən silinməkdə olan xatirələrini bu sevimli gündə bu fərəhli qəlblərdə, bu çırpınan ürəklərdə rəkz ediyordu.

Ömründə ilk dəfə görəcəyi və bir daha görəcəyinə ümid edəmədiyi və ancaq bu günün şərəfinə nail olduğu bu kəraməti itirib, bu gün gördüyü təntənə, sürdüyü zövq və səfalar burnundan tökülə-tökülə güruh-güruh qadınlar məyusanə evlərinə övdətə məcbur oluyorlardı.

Azərbaycan istiqlaliyyətinin Azərbaycan vilayətində, Azərbaycan paytaxtında azərbaycanlılara mənsub olan bulvarın bilafərq millət və din hər kəs üçün güşadə olan qapısının Azərbaycan qadınlarının üzünə bağlanması, həm də gündüz-gecəsi ömründə bir saat-lıq bulvarın havasından məhrum buraxılmaları həqiqətən insaf xaricində bir şeydir.

Bütün ömrünü bulvarda keçirən, gündüzü gecəsiylə bərabər bulvarın skamyaları üzərində buraxılan, yanlarını skamyalar ağardıb oyanına-buyanına çevrilib də gecə yarılarına qədər bulvarda qalan ərkəklər o gecə kəndiləri çıxıb da o günün şərəfinə ehtiramən də olsa bir saatlığa yerlərini – skamyalarını ana-bacılarına tərk etsə idilər qiyamətmi qopardı?

Həmin polis məmurları sokak ortasında durub da qadınların yollarını gözləyib, qabaqlarına keçib evlərinə qaytarmaq vəzifəsi yerinə, həmin polis məmurları bulvarın qapılarında durub da qadınları bulvara buraxıb və kəndilərinə pasibanlıq eləyə idilər nə olardı?

O günün sabahısı bir kaç yerdən bəzisini az tanıdığım xanımlar tərəfindən telefona çağırıldım.

Yarım saat müddəti çəkən sözüşlü söhbətlərin həpsi qadınların bədbəxtliyinə dair idi.

Ərkəklər tərəfindən təhqir edilən, heç məsabəsində hesab olunan, varlıqlarından iftixar deyil, qalə alınmayan qadınlarımız şikayətlərini bənə söylüyor və bəndən imdad tələb ediyor. Zavallı həmşirələrim düşünmüyorlar ki, bən də onlar kibi zavallı qadınların birisiyəm. Bənim onlara nə kibi yardımım ola bilir. İştə bir şey daha xatirimə gəldi ki, onu da söyləməkdən qalmıyacağım. Ərkəklərimiz kəndiləri millətimizin həşəmətli günü üçün hazırlıqlar görəndə bir parça nöqteyi-nəzərlərini də qadınlar tərəfinə fırlada idi və qadınlarımız da oraya toplaşa idilər. Məclisi-Məbusan binasının içi və dışarısı ərkəklərimiz üçün hazırlananda onun yanıbaşında olan realnı məktəbinin binası da xanımlarımız üçün təyin edilə idi də sokak ortasında toplanıb hökumətin istiqlalı üçün səninlə şadlıq edən, sənin kibi onun da milləti yolunda ürəyi çırpınan, sokak ortasında olunan zülmlər, edilən həqarətlərə baxmayıb saatlarla dəniz dalğası kibi dalğalanan qadınlar o gün o qədər zəhmət çəkməyə idilər.

O gün irad olunan nitqlərdə ancaq möhtərəm Məhəmməd Əmin əfəndi Rəsulzadə cənabları qadınların bugünki sürur və şadimaniyə daxil olduqlarını nəzərdən dur tutmamışlar ki, natiq əfəndi hərarətli nitqlərində qadınların da varlıqlarını tədadla qadınların da iştirak etməkdə olduqlarını bəyan buyurdular.

**Mövzu 6. Gender stereotipləri**

*Stereotip nədir? Sosial stereotip. Gender stereotiplərinin formalaşması. Gender rollar. Gender stereotipləri mediada*

Bu mövzu çərçivəsində cinsindən asılı olmayaraq, bütün insanların fəal şəkildə vətəndaş cəmiyyətinin qurulmasında iştirakının vacibliyindən, bu zaman sosial stereotiplərin fərdlərin və toplumların bir-birini anlamasında oynadığı ikili roldan, stereotiplərin formalaşmasına təsir edən amillərdən, sosial stereotiplərin adekvaktlıq dərəcəsindən söhbət açılacaqdır. Stereotiplərin informasiya axınında insanı necə istiqamətləndirdiyi, onların nə üçün etibarlı olmadıqları izah ediləcəkdir.

Sosial stereotiplər içərisində gender stereotiplərinin yeri, onların gender rollara əsasən tarixən necə formalaşması, pozitiv və neqativ tərəfləri təhlil ediləcəkdir. Mediada gender stereotiplərinin təqdimatı, bu stereotiplərin cinsi ayrı-seçkiliyin təşviqində rolu örnəklər əsasında ayrıca olaraq incələcəkdir.

**Ədəbiyyat siyahısı**


1. Baehr, H. The liberated women in television drama. In H. Baehr (Ed.), Women and media. Oxford: Pergamon, 1980.
2. Bilgin, N. Sosyal bilimler kavsağında kimlik sorunu. İzmir: Ege, 1994.
3. Brown, V., 5.Geis, F. L., Jenning, J. & Porter, N. (1984). TV commercials as achivement scripts for women. Sex Roles, 10 (7/8), 513-525.
4. Chandler, D. (1998). Television and Gender Roles. (Online). http://www.aber.ac.uk/ednwww/undergradlED30520/gender tv.html
5. Gender streotipləri: azcla.org/Section_Gender_and_stereotypes.pdf
6. Nittle, N. K. What Is a Stereotype? http://goo.gl/HFzpLw, Erişim Tarihi: 30 Ekim 2014.
7. Steranger Charles, Shaller Mark 2000. Stereotypes and Prejudice. California, 2000.


**Tapşırıq**

Son həftə ərzində medianı izləyin və sizin fikrinizcə, gender stereotiplərini əks etdirən yazıları tapın. Bu stereotipləri aşağıdakı suallara görə təhlil edin:

1. Sizcə, bu stereotipin kökü haradan gəlir?
2. O, hansı amillər əsasında formalaşıb?
3. Onun formalaşmasında gender rollar nə dərəcədə rol oynayıb?
4. Bu stereotiplərin formalaşmasına milli, yerli xüsusiyyətlər nə dərəcədə təsir göstərib?
5. Məqalədə gender stereotipləri nə dərəcəgə təşviq olunur?

**Mövzu 7. Mediada cinsiyyətçilik**

*Cinsiyyətçilik nədir? Avropa Şurası Nazirlər Komitəsinin Cinsiyyətçiliyin qarşısının alınması və onunla mübarizəyə dair 27 mart 2019-cu il tarixli Tövsiyəsi və cinsiyyətçilik anlayışı. Mediada cinsiyyətçilik. Cinsiyyətçi stereotiplər. Avropa Şurasının Mediada cinsiyyətçi stereotiplərə qarşı mübarizə barədə 1751 saylı Qətnaməsi*

Bu mövzu çərçivəsində tələbələrə ilk növbədə cinsiyyətçiliyin nə olduğu izah ediləcək, bu zaman Avropa Şurası Nazirlər Komitəsinin Cinsiyyətçiliyin qarşısının alınması və onunla mübarizəyə dair 27 mart 2019-cu il tarixli Tövsiyəsində yer alan cinsiyyətçilik anlayışının definisiyası incələnəcəkdir. Cinsi zəmində ayrı-seçkilik və ya qərəzli münasibət olan

cinsiyyətçiliyin cəmiyyət həyatının bir çox sahələrində təzahürlərindən və cinsiyyətçi stereotiplərin formalaşmasında oynadığı roldan danışılacaqdır. Media cinsiyyətçilik mövzusu çərçivəsində, ilk növbədə, mediada cinsiyyətçi stereotiplərin yeri və rolu, bu stereotiplərin tarixən mediada əksi, zaman-zaman dəyişən və dəyişməyən elementləri təhlil olunacaqdır. Medianın müxtəlif qollarında – reklam materillarında, video oyunlarda, cizgi filmlərində cinsiyyətçilliyin təzahürünün cəmiyyətə təsiri araşdırılacaqdır. Cəmiyyətin cinsiyyətçi stereotiplərə alışqanlığının, çox zaman media məhsullarda ötürülən açıq və gizli mesajların fərqinə varmamasının gənc nəsildə şüuraltı cinsiyyətçi yanaşmanın formaşlamasına necə səbəb olduğu təhlil ediləcəkdir. Avropa Şurasının Parlament Assambleyasının 1751 saylı Mediada cinsiyyətçi stereotiplərlə mübarizə Qətnaməsində vurğulanan bu stereotiplərin xüsusilə gənclərin ictimai rəyinin förmalaşmasında oynaya biləcəyi mənfi təsir izah ediləcəkdir. Qətnamədə tövsiyə olunan cinsiyyətçi yanaşmanı aradan qaldırmaq və gender bərabərliyinə nail olmaq üçün medianın görə biləcəyi tədbirlər açıqlanacaqdır. Belə bir mühitdə jurnalistikanın və jurnalistlərin üzərinə düşən vəzifələr - ilk baxışda nəzərə çarpmayan cinsiyyətçi yanaşmanı necə müəyyən etməyi bacarmaq, cinsiyyətçi stereotiplərdən və mesajlardan necə qaçmaq, qeyri-cinsiyyətçi dildən necə yararlanmaq kimi məsələlər müzakirə olunacaqdır.

**Ədəbiyyat siyahısı**

1. Cynthia Carter, Linda Steiner. Critical readings. The Media and Gender Reader. Open University Press, 2003.
2. 21 Facts About Gender Inequality You Need To Know Now. https://www.makers.com/blog/21-facts-you-never-knew-about-international-gender-inequality
3. Gender and sexism. What is sexism? UNICEF Ireland. http://www.unicef.ie/wp-content/themes/iboot-child/micro-sites/itsaboutus/cards/unicef-itsaboutus-gender-sexism.pdf
4. Sexism in the media hinders growth. http://panthernow.com/2018/01/25/sexism-media-hinders-growth/
5. 15 Unbelievably Sexist Adverts From The 1970s. https://www.buzzfeed.com/patricksmith/unbelievably-sexist-adverts-from-classic-magazines?utm_term=.owZJlM7bV#.xf2DEPdq5
6. Recommendation 1799 (2007) by the Parliamentary Assembly of the Council of Europe on the image of women in advertising.
7. Recommendation CM/Rec(2019)1 of the Committee of Ministers to member States on preventing and combating sexism (27 March 2019).
8. Resolution 1751 (2010) and Recommendation 1931 (2010) by the Parliamentary Assembly of the Council of Europe on combating sexist stereotypes in the media.

**Tapşırıq**

D. Somovun “Tennisçi qadın kortda paltarını dəyişdi. Onu buna görə cəzalandırdılar” yazısını oxuyun. Videoya baxın, şərhləri oxuyun, US Open-nin bəyanatı ilə tanış olun. Siz jurnalist kimi bu hadisəni necə xəbərləyərdiniz? Öz xəbərinizi hazırlayın.

Mənbə:
https://www.sport-express.ru/tennis/grand-slam/reviews/tennisistka-pereodelas-na-korte-ee-za-eto-nakazali-1451210/

**Tennisçi qadın kortda paltarını dəyişdi. Onu buna görə cəzalandırdılar.**
***Dmitri Somov***

Bu günlərdə US Open yarışında artıq cinsiyyətçilik kimi damğalanan qalmaqal yaşanıb. Qalmaqalın qəhrəmanı fransalı Alize Kornedir. Turnurun keçirildiyi Nyu-Yorkda hava qızmar və rütubətlidir, termometrin sütunu gündüzlər 30 dərəcədən aşağı düşmür. Çərşənbə axşamı isə temperatur hətta 34 dərəcə idi.
Elə bu səbəbdən də təşkilatçılar oyunçulara özlərinə gəlmək üçün 10 dəqiqəlik tənəffüs verməyi qərara alıblar - qadınlara ikinci, kişilərə isə üçüncü setdən sonra (əlbəttə, əgər görüş başa çatmayıbsa). Çərşənbə günü Yuhanna Larsson ilə matçın birinci dövrəsindən sonra Korne soyunub-geyinmə otağına gedib və korta qayıdandan sonra köynəyini dalqabaq geyindiyi görüb. Fransız qadın bir an belə tərəddüd etmədən köynəyi çıxardıb, düz üzünə geyinərək oyunu davan etdirməyə hazırlaşıb.
Korne hakim Kristina Raskadan oyunun qaydalarını pozduğunu eşidəndə çox təəccüblənib.
"Pozuntu? Doğrudan?", – o, Raskadan soruşub.
Xoşbəxtlikdən, bu yalnız şifahi xəbərdarlıq olduğu üçün Kornedən xal çıxılmadı. Yeri gəlmişkən, Korne onsuz da uduzdu – 6:4, 3:6, 2:6.

Qadın Tennis Assosiyasiyanın (WTA) reqlamentinə görə, tennisçi qadınlar ancaq soyunub-geyinmə otaqlarında paltarlarını dəyişə bilərlər. Halbuki, kişilər üçün heç bir məhdudiyyət yoxdur. Onlar köynəklərini elə kortdaca dəyişə bilərlər. Nyu-Yorkda onlar oyunlar və setlər arası fasilələr zamanı tamamilə soyunur, boyunlarından yaş dəsmal ya da buz torbaları asırdılar ki, bir az sərinləsinlər.

Aydın məsələdir ki, bu hadisə əksər azarkeşləri, oyunçu və mütəxəssisləri qeyzləndirdi. Onlar anlaya bilmidirlər ki, Korne nəyə görə cəzalandırılıb.

"Korne korta 10 dəqiqəlik fasilədən sonra qayıtdı. O, köynəyini dalqabaq geyinmişdi. Kortadaca köynəyini yenidən geyindi. Və qaydanı pozduğuna görə xəbərdarlıq aldı. Qeyri-idman davranışına görə… Kişilər maykalarını elə kortdaca dəyişirlər, buna məhəl qoyan yoxdur ", – tennis üzrə eks dünya çempionu Endi Marreyin anası Judi Marrey tvitterdə belə yazırdı…
Amerika tennisçisi Betani Mattek-Sends bu qərarı «zəif» qərar adlandırdı. Avstraliyalı Keysi Delakua isə qaydalara «mənasız və gülməli» dedi.

Çərşənbə günü US Open turnirinin təşkilatçıları geri çəkildilər, xüsusi bəyanat verməklə haqlı olmadıqlarını etiraf etdilər.

Bəyanatda deyilir: "Bütün oyunçuların pauza zamanı stulda əyləşib paltarlarını dəyişmək hüquqları var. Bu, reqlamentin pozulması sayılmır. Biz madmuazel Kornenin dünən cəzalandırıldığı üçün təəssüflənirik və bu məsələdə öz siyasətimizi açıqlamaq istəyirik. Xoşbəxtlikdən, ondan xal çıxılmayıb. Tennisçi qadınlar istədikləri halda, imkan varsa, kortun yaxınlığındakı qapalı bir yerdə paltarlarını dəyişə bilərlər. Bu halda bu, ayaqyolu fasiləsi kimi (bu fasilələrin də sayı hər bir set üçün məhduddur) qiymətləndirilməyəcəkdir.
Xoşbəxtlikdən, həftə sonu Nyu-Yorkda havaların bir qədər soyuyacağı gözlənilir – temperatur 24-35 dərəcəyədək enəcək.

**Mövzu 8. Mediada gender əsaslı zorakılıq və cinsiyyətçi nifrət nitqi**

*Cinsiyyətçi nifrət nitqi, mediada gender əsaslı zorakılıq, damğalama, cinsi zorakılığa təhrik etmə, cinsi qısnama, stereotipə əsaslanan cinsiyyətçi ritorika, gender zorakılığının təbliği*

Bu mövzuda gender əsaslı zorakılığın və cinsiyyətçi nifrət nitqinin anlayışı əhatə olunacaq, problemə və onun həllinə regional və beynəlxalq institutlar çərçivəsində müəyyən edilmiş standartlar perspektivindən baxılacaqdır.

Mövzu çərçivəsində digərlərini narahat, təhqir və şok edən ifadələri də ehtiva edən söz azadlığı ilə nifrət nitqi, nifrət nitqi ilə nifrətə çağırış arasında fərqlər nəzərdən keçiriləcəkdir. Nifrət nitqinin anlayışı izah ediləcəkdir. Getdikcə yayılan nifrət nitqinin demokratik cəmiyyətlərdə əhatəli ictimai müzakirələr üçün yaratdığı təhlükə nəzərdən keçiriləcək, nifrət nitqi ilə bağlı Avropa İnsan Hüquqları Məhkəməsinin yanaşması və presedent hüququ təhlil ediləcəkdir.

Gender zorakılığı hallarının mediada işıqlandırılması zamanı yaranan problemlər araşdırılacaq, jurnalistlərin bu mövzuları qələmə alarkən gender zorakılığı qurbanlarının hüquqlarını pozmamaq və nifrətə çağırışdan qaçmaq üçün nələri bilməli olmaları izah ediləcəkdir.

Əlavə olaraq, nifrət nitqinin qarşısının alınması və qadın jurnalistlərin təhlükəsizliyinin müdafiəsi ilə bağlı Avropa Şurasının, UNESCO və ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin təşəbbüsləri və bu çərçivədə qəbul olunan sənədlər də nəzərdən keçiriləcəkdir. Bu kontekstdə onlayn müstəvidə jurnalistlərin, bloqqerlərin, ələlxüsus da qadın jurnalistlərin qısnama və təhdidlərdən müdafiə məsələsi də təhlil ediləcəkdir. Nifrət nitqinə qarşı mübarizə sahəsində vətəndaş çəmiyyətinin və QHT-lərin apardıqları kampaniyalara da diqqət yetiriləcəkdir (məsələn, Everyday Sexism Project, Women, Action and the Media group (WAM!) və s.).

**Ədəbiyyat siyahısı**


1. Caitlin Elizabeth Ring. Hate Speech in Social Media: An Exploration of the Problem and Its Proposed Solutions. University of Colorado, Boulder CU Scholar, 2013.
2. Challenges to Women's Human Rights in the EU Gender Discrimination. Sexist Hate Speech and Gender-based Violence against Women and Girls, 2017.
3. Combating Sexist Hate Speech. Council of Europe Gender Equality Strategy. https://rm.coe.int/1680651592
4. Council of Europe. Gender Equality Commission: Handbook on the implementation, 2015. https://rm.coe.int/1680590558
5. Council of Europe. (2014). Declaration of the Committee of Ministers on the protection of journalism and safety of journalists and other media actors. https://rm.coe.int/09000016805c5e9d
6. Council of Europe. Combating Sexist Hate Speech (Council of Europe Gender Equality Strategy No. REF. 069816GBR). Strasbourg: Council of Europe, 2016. https://rm.coe.int/1680651592
7. Cynthia Carter, Linda Steiner, Lisa McLaughlin The Routledge Companion to Media and Gender. Routledge, 2014. pp. 32-42.
8. Əliyeva S. Müasir Azərbaycan ədəbi dilinin mətbuat üslubu. Bakı: "Elm və təhsil" nəşriyyatı, 2012. s. 141-157.
9. Fundamental Rights Agency of the European Union. Violence, threats and pressures against journalists and other media actors in the EU: 2016.

http://fra.europa.eu/en/publication/2016/violence-threats-and-pressuresagainst-journalists-and-other-media-actors-european
10. Gagliardone, I., Gal, D., Alves, T., & Martinez, G. (2015). Countering Online Hate Speech (UNESCO Series on Internet Freedom). Paris: UNESCO. http://unesdoc.unesco.org/images/0023/ 002332/233231e.pdf
11. Mediating Misogyny: Gender, Technology and Harassment. Springer International Publishing AG, 2018.
12. Media and Gender: A Scholarly Agenda for the Global Alliance on Media and Gender, UNESCO, 2014. pp. 17-22.
13. OSCE Representative on Freedom of the Media. (2016). New Challenges to Freedom of Expression: Countering Online Abuse of Female Journalists. Vienna. http://www.osce.org/fom/220411?download=true
14. OSCE Representative on Freedom of the Media. (2015). Recommendations following the Expert Meeting New Challenges to Freedom of Expression: Countering Online Abuse of Female Journalists. https://www.osce.org/fom/193556?download=true
15. Recommendation No. R (97) 20 of the Committee of Ministers to member states on “hate speech” retrieved from https://www.coe.int/en/web/freedom-expression/committee-of-ministers-adopted-texts/-/asset_publisher/aDXmrol0vvsU/content/recommendation-no-r-97-20-of-the-committee-of-ministers-to-member-states-on-hate-speech-
16. Recommendation CM/Rec(2013)1 of the Committee of Ministers of the Council of Europe on gender equality and media.
17. Resolution 1751 (2010) Combating Sexist Stereotypes in the Media.
18. Recommendation 1931 (2010) Combating Sexist Stereotypes in the Media.
19. Recommendation No. R (84) 17 of the Committee of Ministers to Member States ON Equality between Women and Men in the Media.
20. Taran Knudstad. Gender-Based Hate Speech. http://www.dejmezenamsanci.cz/wp-content/uploads/2017/05/Gender-Based-Hate-Speech-Taran-Knudstad.pdf
21. UN. (2017). UN General Assembly Resolution 75/152 on the safety of journalists and the issue of impunity (A/RES/72/175 )
22. UNESCO. (2018). World Trends in Freedom of Expression and Media Development: 2017/2018 Global Report (pp. 1–201). Paris. https://euagenda.eu/upload/publications/untitled-137227-ea.pdf
23. UNESCO. (2017). REPORT. Multi-stakeholder Consultation on Strengthening the implementation of the UN Plan of Action on the Safety of Journalists and the Issue of Impunity. Geneva: UNESCO. https://en.unesco.org/sites/default/files/report_-_multistakeholder_ consultation.pdf

**Tapşırıq**

Verilmiş məqalə Azərbaycan əsilli aktrisanın tanınmış rusiyalı rejissor tərəfindən cinsi qısnamaya məruz qaldığı barədə iddialara həsr olunub. Sizcə, bu məqalə necə qiymətləndirilməlidir: qadınlara qarşı nifrət nitqi, nifrətə çağırış və ya söz azadlığı kimi? Tələbələr 2 qrupa ayrılır. Birinci qrup məqalədə nifrət nitqinin və nifrətə çağırışın elementləri olduğunu əsaslandırsın, ikinci qrup isə bunun əksini sübut etsin.

Mənbə:
http://www.moderator.az/news/215304.html

**Azərbaycan qadını rus kişisinin onu zorlamasına şərait yaradırsa!.. Bu, sondur artıq...**

Kimsə bu sözümü xalqı təhqir kimi qəbul edib inciyə bilər. Amma faktlarla sübut olunası bir gerçəkliyi həmişə deyirəm; biz bir xalq olaraq son 15-20 ildə bir vaxtlar digər qeyri-müsəlman, qeyri-türk xalqlarda görüb istehza etdiyimiz iki cəhəti tamamilə özününküləşdirməkdəyik. Bunlardan biri cavanlarımızın, kişilərimizin əyyaşlığıdır, yəni arağa, pivəyə, çaxıra qurşanmasıdır... İkincisi isə qadınlarımızın açıq-saçıqlığıdır...

Yaşlı və orta yaşlı nəsil nümayəndələrinin yaxşı yadında olar ki, hələ ötən əsrin 70-80-ci illərində Azərbaycanın əksər bölgələrində, eləcə də Bakı, Sumqayıt, Gəncə kimi şəhərlərində çox nadir hallarda küçələrdə dar şalvar, yaxud mini-ətək, sinəsi, çiyni açıq qiyafə geyinmiş qıza-qadına rast gəlinərdi. Belələri görünəndə isə küçədə fitə basılar, onun özü də, valideynləri də, kəskin qınaq obyektinə çevrilərdi... Düzdü, 70-ci illərdə bir müddət Bakıda mini-ətəklər dəbə minmişdi. Amma qeyrətli atası, qardaşı, əri olan qız-gəlin heç vaxt belə geyinməz, ən pis halda bunu gizlincə edərdi... Həmin dövrlərdə kişilərimiz artıq həm araq, pivəyə, həm də "bazlıq" etməyə alışmışdı. Elə türk, Azərbaycan kişiliyinin məhvi həm də ondan start götürdü ki, məişət səviyyəsində cavanlara araq içmək, siqaret çəkmək, arvadına xəyanət edərək zinakarlıq etmək - kişilik atributları kimi təlqin edilməyə başlandı: "Ə, kişi deyilsən, çək! Ə, kişi deyilsən, araq iç! Ə, kişi deyilsən, getdik bazlığa..." Həmin vaxt artıq XX əsrin 20-30-cu illərində güllələnmiş, sürgün edilmiş dədə-baba dəyərlərinin qoruyucusu olan Kərbəlayı İsmayılbəy kimi kişilər çox az qalmışdı... Onların yerini liberal dəyərlər qarşısında qarış-qarış geri çəkilən Abbasqulu bəy tipli ağsaqqallar tutmaqda idi. Yəni, milli dəyərlərimizin sürəkli deqradasiya prosesi əslində bu gün şükür etdiyimiz sovet dönəmindən başlanmışdı...

Baxın, indi ətrafa, diqqətlə baxın... Kişilərimiz əyyaşlıqda vaxtilə lağ etdiyimiz rusları keçiblər... Artıq qız-qadınlarımızın araq içib barlarda, küçələrdə min hoqqadan çıxmasını əks etdirən "n" sayda video-görüntü tapmaq olar... Əyyaşlıq edən kişilərin "bazlıq" etməyə heyi qalmayıb, indi artıq qadınlar zinakarlıq edir... Özü də nəinki özgə kişilərlə, yad, qeyri-müsəlman kişilərlərlə... Vaxtilə "13-14 yaşlarından qızlarının bakirəliyi pozulur" deyə istehza etdiyimiz erməni, rus, fransızların səviyyəsinə enməkdəyik. Artıq rejissorlarımız efirdə açıq-açığına qızları işə götürəndə "bakirəsənmi" sualını verdiklərini etiraf edir... Bakirəliyini satışa çıxaran yeniyetmə qızlarımız peyda olur... Orta məktəblərdə 7-ci sinif qızları oğlanlarla intim əlaqəyə girirlər...

Bu günlərdə adını çəkmək istəmədiyim şərəfsiz bir Azərbaycan aktrisası məşhur bir rus kinorejissoru tərəfindən guya zorlandığını deyir. Özü də bunu 12 ildən sonra etiraf edir... Mediamız da bəh-bəhlə həmin xəbəri dərc edir... Daha bu yoldan çıxmış qadından soruşan yoxdur ki, sən niyə belə əqidəli, belə gündən-günə lütlənən bir Azərbaycan sənətçisi olurdun ki, rus rejissor da səni zorlanmağa həvəslənsin... Kim nə deyir-desin, zorlanma faktlarının əksəriyyəti kişilərin alkoqol qəbul etməsi, qadınların isə açıq-saçıq geyinməsi ilə bağlıdır. Bir xalqın ağbirçək sənətçi qadını deyirsə ki, 16 yaşında olsaydım, soyunardım, daha nədən danışmaq olar?.. Düzdü, demək olmaz ki, bütün açıq-saçıq geyinən qadınlar əxlaqsızdır. Bütün hallarda bu cür qız və qadınlar özləri günah etməklə kişiləri, gəncləri də günaha batırır. Onlarda şəhvət hissini oyadaraq onların proqramını, əqidəsini dəyişirlər. Və bu, bir gün özünü kişinin arvadına xəyanət edərək yad qadınla zina yapmasına, ya da onu zorlamasına gətirib çıxarır...

Düzü, heç 1920-ci illərdə bolşeviklərin Azərbaycanın altını-üstünə çevirdiyi zaman da rus kişilərin Azərbaycan qadınını zorlamasını eşitməmişdim... Görün, hardan-hara gəlib çıxdıq...

Xülasə, bəylər, əfəndilər, ağalar, xanımlar, İslamdan uzaqlaşmağın, amerikanlaşmağa, avropalaşmağa baş əymənin, saxta hürriyyətin, yabançı “qadın azadlığı”nın sonu budur... Azərbaycan qadınlarının Dubaya, İstanbula axınından sonra artıq yad millətin kişiləri tərəfindən zorlanması da adiləşir... Kimsə deməsin ki, əşşi, hər kəs öz namusuna cavabdehdir, mənim ailəmdə belə hallar yoxdur. Xeyr, bu gün öz başına gəlməyibsə, sabah oğlunun, qızının, nəvə-nəticənin başına gələ bilər... Çünki üstümüzə murdar bir əxlaqsızlıq seli gəlir, birləşib qarşısını almasaq, bir millət olaraq hamımızı yer üzündən silib aparacaq... Bilin ki, gözümüz görə-görə bizi namussuzluğa, fahişəliyə, “mavi”liyə alışdırırlar. Bizi addım-addım bunlara öyrəşdirirlər... Bizə on illərdir Xocalıda erməni dığaları tərəfindən zorlanan qız-gəlinlərimizin harayına öyrəşdirirlər... Azərbaycan kişiliyinin atəşini kəsməyə yönəlmiş “atəşkəs” boyu bizi Qarabağsızlıqla yanaşı, hər cür alçaqlığa, yaltaqlığa, namussuzluğa, dələduzluğa, oğurluğa, əyyaşlığa, narkomanlığa, fahişəliyə alışdırırlar...

Ümumiyyətlə, biz nə üçün yaşayırıq?.. Bu suala qapılıb intihar etməyək - düşünək və törəmizə, dinimizə mümkün qədər əməl edək ki, məhv olmayaq..

## Mövzu 9. Gender bərabərliyinin təmin edilməsi üçün peşəkar mediada istifadə olunmalı strategiyalar

*Peşəkar mediada gender bərabərliyini əngəlləyən amillər, qadınların media qurumlarında təmsilçiliyi, gender bərabərliyinə sövq edən media məhsullarının istehsalı, media qurumlarında gender bərabərliyini təmin edən yanaşmalar*

Bu mövzunun tədris proqramına daxil edilməsi media sahəsində gender bərabərliyi ilə bağlı peşəkar vəziyyət barədə təsəvvür yaratmaq məqsədi güdür. Media sahəsinin bu mənada genderlərarası əmək haqqı fərqi, genderə əsaslanan ayrı-seçkilik, cinsi zəmində təhqir və təcavüzlə səciyyələndiyini nəzərə alaraq tələbələr bu çətinliklərin aradan qaldırılmasına gətirə biləcək yanaşmaları müzakirə edəcək, media qurumunda peşəkar şəraitdə həm üfüqi, həm şaquli şəkildə gender bərabərliyinə sövq edən seçimlərə üstünlük verilməli olduğunu öyrənəcəklər. Bununla yanaşı, qadınların stereotiplərdən kənar ictimai rolları, cəmiyyətə töhfələri, müxtəlif fəaliyyətləri barədə materillardan istifadə olunmasının faydası təhlil olunacaq, peşəkar mediada gender bərabərliyinin təmin olunması üçün şuurlu seçim və qərarların zəruriliyi izah ediləcəkdir.

### Ədəbiyyat siyahısı


1. Gender Equality in the Media Sector. Study by the Policy Department for Citizen’s Rights and Constitutional Affairs, European Parliament, 2018.
2. Rosalind Gill, Gender and the Media. UK, Cambridge, Polity Press, 2007.
3. Julia T. Gendered Media: The Influence of Media on Views of Gender,. Wood, 2012.
4. Recommendation No. R (84) 17 of the Committee of Ministers to member states on equality between women and men in the media.
5. The Global Media Monitoring Project 2015 (Gender Inequality in the News). http://www.media-diversity.org/en/additional-files/Who_Makes_the_News_-_Global_Media_Monitoring_Project.pdf


### Tapşırıq

Avropanın Gender Bərabərliyi İnstitutunun mediada gender bərabərliyinin təmin edilməsinə dair yaxşı təcrübələr haqqında məlumat bazası ilə tanış olun. Daha sonra xəbər gündəmini

formalaşdıran ölkənin ənənəvi media vasitələrinin on nümunəsi (televiziya, radio, çap və informasiya agentliyi daxil olmaqla) üzərində media strukturunun idarəetməsində qadınların rolunu təhlil edin və infoqrafika yaradın. Topladığınız məlumat əsasında "Müasir Azərbaycan qadını media gözü ilə" mövzusunda esse yazın.

Mənbə:
https://eige.europa.eu/gender-mainstreaming/good-practices?topic[]=627

**Mövzu 10. Audiovizual sektorda gender bərabərliyi**

*Audiovizual sektorda gender stereotipləri və qadınların təsviri, gender stereotipləri, cinsçilik və qadınlara qarşı zorakılığa qarşı audiovizual sektorun mübarizədə rolu, audiovizual sektorda gender bərabərliyi haqqında Avropa Şurası Nazirlər Komitəsinin üzv dövlətlərə 9 saylı Tövsiyəsi*

Kino, efir, rəqəmsal media və video oyunlarını ehtiva edən, lakin onlarla məhdudlaşmayan audiovizual sektor gender bərabərliyi ideyalarının yayılmasına yol aça bildiyi kimi, həm də toplumda oturuşmuş gender stereotiplərinin daha da dərin kök salmasına səbəb ola bilər. Bu mövzu çərçivəsində qadınların audiovizual sektorda təsvirinin gender stereotipləri ilə əlaqəsi, audiovizual sektorda qadınlara ayrılan rollar və problemlər təhlil ediləcək, bu sektorun gender stereotipləri, cinsçilik və qadınlara qarşı zorakılığa qarşı mübarizədə rolu araşdırılacaqdır. Audiovizual sektorda gender stereotipləri əsasında qadınlar və kişilər arasında rolların bölünməsinin qarşısının alınması üçün Avropa Şurası Nazirlər Komitəsinin 9 saylı Tövsiyəsi nəzərdən keçiriləcəkdir.

Audiovisual sektorda qadınların geniş təmsil olunmamalarının və əmək bazarında üfüqi və şaquli segregasiyanın səbəbləri təhlil olunacaqdır. Qadınların bu sektorda qərar qəbuletmədə iştirakı, siyasi xəbərlərdə və qeyri-ənənəvi peşəkar qurumlarda təmsilçiliyi və bu sahədə ayrı-seçkiliyin aradan qaldırılması yolları öyrəniləcəkdir.

**Ədəbiyyat siyahısı**

1. Byerly, C. (2014a). Media conglomeration and women's interests: A global concern. Feminist Media Studies. Taylor & Francis. https://doi.org/10.1080/14680777.2014.909137
2. Byerly, C. (2014b). The long struggle of women in news. In Montiel, A (Ed.), Media and Gender: A Scholarly Agenda for the Global Alliance on Media and Gender (pp. 40–43). UNESCO: Paris.
3. Byerly, C. (2014c). Women and media control: Feminist interrogations at the macro-level. In C. Carter, L. Steiner, & L. McLaughlin (Eds.), The Routledge Companion to Media and Gender (pp. 105–115). Taylor & Francis.
4. Byerly, C. Factors Affecting the Status of Women Journalists: A Structural Analysis. In C. Byerly (Ed.), The Palgrave International. London, 2013.
5. Byerly, C. (2011a). Behind the scenes of women's broadcast ownership. Howard Journal of Communications, 22(1), 24–42. https://doi.org/10.1080/10646175.2011.546740
6. Byerly, C. (2011b). Global Report on the Status of Women in the News Media. Washington, DC: International Women's Media Foundation IWMF.
7. Council of Europe. (2013). Media and the image of women (Report of the 1st Conference of the Council of Europe Network of National Focal Points on Gender Equality). Amsterdam. Retrieved from https://rm.coe.int/1680590587

8. Duffy, B. E. (2015). Gendering the labor of social media production. Feminist Media Studies, 15(4), 710–714. https://doi.org/10.1080/14680777.2015.1053715 12.
9. Duffy, B. E., & Pruchniewska, U. (2017). Gender and self-enterprise in the social media age: a digital double bind. Information, Communication & Society, *20*(6), 843–859. https://doi.org/10.1080/1369118X.2017.1291703
10. European Institute for Gender Equality. Review of the implementation of the Beijing Platform for Action in the EU Member States: Women and the Media — Advancing gender equality in decision-making in media organisations,. Vilnius, Lithuania, 2013. http://eige.europa.eu/rdc/eige-publications/advancing-gender-equalitydecision- making-media-organisations-report
11. Gender Equality in the Media Sector, Study for the FEMM Committee, 2018.
12. Global Alliance for Media and Gender. (2014). GAMAG Framework and Plan of Action. http://www.unesco.org/new/fileadmin/MULTIMEDIA/HQ/CI/CI/pdf/gamagframework_and_action_plan_30sep2014.pdf
13. Global Media Monitoring Project. Global Media Monitoring Project 2015 Regional Report Europe. Toronto, 2015. http://cdn.agilitycms.com/who-makes-thenews/ Imported/reports_2015/regional/Europe.pdf
14. Global Report on the Status of Women in the News Media. Washington, DC. http://www.iwmf.org/wp-content/uploads/2013/09/IWMF-Global-Report.pdf
15. Nordicom. (2018). Men and (a few) women in the top 100 international media corporations. Göteborg: University of Gothenburg. http://www.nordicom.gu.se/sites/default/files/medieforskningstatistik/ factsheet_gendermapping_top-100-corps_2018-02-27.pdf
16. Recommendation CM/Rec(2017)9 of the Committee of Ministers to member States on gender equality in the audiovisual sector.
17. Rosalind Gill, Gender and the Media. UK, Cambridge, Polity Press, 2007.
18. Ross, K., & Padovani, C. Gender Equality and the Media. New York: Taylor & Francis, 2017.
19. Ross, K. (2014a). Women in decision-making structures in media. In UNESCO (Ed.), Media and Gender: A Scholarily Agenda for the Global Alliance on Media and Gender (pp. 44–48).
20. Ross, K. (2014b). Women in Media İndustries in Europe: What's wrong with this picture? Feminist Media Studies. Taylor & Francis. https://doi.org/10.1080/14680777.2014.909139
21. Rush, R.R., Oukrop, C.E. and Sarikakis, K. (2005). A Global Hypothesis for Women in Journalism and Mass Communications: The Ratio of Recurrent and Reinforced Residuum. Gazette, 67 (3). pp. 239-253.
22. Sarikakis, K. and Shade, L. Feminist Interventions in International Communication: Minding the Gap. Rowman and Littlefield, 2008.

**Tapşırıq**

Reytinqli türk seriallarının ssenarilərini araşdırın (misal üçün*, Alemin Kralı, Sen Anlat Karadeniz, Siyah Beyaz Aşk və s.*) və həmin serialların audiovizual sektorda qadınların imicinə necə təsir etdikləri haqda 300 sözdən çox olmayan yazı təqdim edin.

**Mövzu 11. Təbliğedici və reklam xarakterli məhsullarda gender amili**

*Təbliğedici və reklam xarakterli məhsullarda gender stereotipləri və qadın obrazlarının xarakterik cəhətləri, femvertayzinq, Azərbaycan reklam bazarında gender stereotipləri,*

*<u>reklamda gender bərabərliyini təmin etmək üçün mövcud beynəlxalq təcrübə, Avropa Şurasının Reklamda qadınların imici haqqında 1799 saylı Qətnaməsi</u>*

Bu mövzu çərçivəsində gender amilinin təbliğedici və reklam xarakterli məhsullarda nə üçün önəmli olduğu müxtəlif aspektlərdən incələnəcək, bu zaman gender stereotiplərinin oynadığı rol, bu stereotiplərin cəmiyyətə ötürdüyü mesajlar və nəticədə ictimai rəyin formalaşmasına təsiri açıqlanacaqdır. Reklamlarda qadınların obrazının bir qayda olaraq, gender stereotiplərindən çıxış edərək verilməsinin kökləri izah ediləcəkdir. Azərbaycan reklam bazarında gender stereotipləri örnəklər əsasında ayrıca olaraq araşdırılcaqdır.

Reklamlarda və təbliğedici materiallarda gender bərabərliyinin təmin etmək üçün müxtəlif ölkələrin təcrübələri izah olunacaq, Avropa Şurasının Reklamda qadınların imici haqqında 1799 saylı Qətnaməsi öyrəniləcəkdir.

Tələbələr reklam sahəsindəki müasir tendensiya olan – femvertayzinq və bir sıra məşhur brendlərin (Dove, Procter & Gamble, Pantene) bu istiqamətdəki təcrübəsi ilə tanış olacaqlar.

**Ədəbiyyat siyahısı**


1. Гладарев, Б., Женщина, мужчина и мобильный телефон / Б. Гладарев // Социологические исследования.— 2006.— № 4.— С. 68–76. [Электронный ресурс].http://www.genderehu.org/files/File/Gender%20Studies%202007/Gladarev_SOCIS_women_men_mobile.pdf
2. Handbook on implementation of Recommendation (2013)1 of CM on gender equality and media. https://eige.europa.eu/library/resource/EIGE_Grey_LiteratureCULT8
3. Павелкина Л.С. Влияние СМИ и рекламы на формирование гендерных моделей поведения. Владивосток: 2014.
4. Pantene 'Sorry, Not Sorry' Commercial: https://www.youtube.com/watch?v=TcGKxLJ4ZGI
5. Procter and Gamble #LikeAGirl. https://youtu.be/XjJQBjWYDTs https://youtu.be/VhB3l1gCz2E
6. Recommendation 1799 (2007) by the Parliamentary Assembly of the Council of Europe on the image of women in advertising.
7. Recommendation 1555 (2002) by the Parliamentary Assembly of the Council of Europe on the image of women in the media.
8. Сиддорская И.В., Гендер и СМИ. Пособие для журналистов. Беларусия: 2015.
9. This Girl Can - Sport England. https://www.youtube.com/watch?v=toH4GcPQXpc
10. The New Rules of Using Femininsm in Marketing. Posted on August 20, 2018 by Katie Martell: https://www.chiefmarketer.com/new-rules-using-feminism-marketing/.


**Tapşırıq**

Auditoriya iki qrupa ayrılır. Birinci qrup gender stereotioplərə əsaslanan mak. 30-40 saniyəlik reklam çarxı çəkir. İkinci qrup bu reklam çarxındakı neqativ stereotipə qarşı çıxan sosial çarx hazırlayır.

**Mövzu 12. Sosial media və gender bərabərliyi**

*<u>Sosial mediada gender bərabərliyi, e-mail üzərindən qısnama, sosial medianın gender bərabərliyinə mümkün qatqısı</u>*

Bu mövzu çərçivəsində gender bərabərliyi sosial media prizmasından bir sıra aspektlərdən incələnəkdir: sosial mediada gender əsaslı bərabərsizlik özünü daha çox nədə göstərir; e-mail üzərindən qısnama nədir; kişilərlə müqayisədə qadınların sosial mediada paylaşımla bağlı fikir bildirmək istəyi hansı səviyyədir; onlar paylaşım etmək üçün daha çox hansı platformaları (Twitter, Facebook) və nəyə görə seçirlər; qadınların sosial mediada passivliyinin və susqunluğunun səbəbləri nələrdir?

Sosial medianın gender bərabərliyinə mümkün qatqısı müzakirə olunacaq, jurnalistlərin sosial mediadan yararlandıqda gender bərabərliyini qorumaq üçün nələri bilməli olduqları açıqlanacaqdır.

Əlavə olaraq, sosial mediada gender bərabərliyi ilə bağlı Avropa Şurasının, UNESCO və ATƏT-in Media Azadlığı üzrə Nümayəndəsinin təşəbbüsləri də nəzərdən keçiriləcəkdir. Bu kontekstdə onlayn müstəvidə jurnalistlərin, bloqqerlərin, ələlxüsus da qadın jurnalistlərin qısnama və təhdidlərdən müdafiə məsələsi də təhlil ediləcəkdir. Nifrət nitqinə qarşı mübarizə sahəsində vətəndaş cəmiyyətinin və QHT-lərin apardıqları kampaniyalara da diqqət yetiriləcəkdir.

**Ədəbiyyat siyahısı**


1. Council of Europe. (2016). Combating Sexist Hate Speech (Council of Europe Gender Equality Strategy No. REF. 069816GBR). Strasbourg: Council of Europe. https://rm.coe.int/1680651592
2. Council of Europe. (2015). Gender Equality Commission: Handbook on the implementation.
3. Council of Europe. (2013). Recommendation CM/Rec(2013)1 of the Committee of Ministers of the Council of Europe on gender equality and media. Strasbourg: Council of Europe.
4. Cynthia Carter, Linda Steiner, Lisa McLaughlin. The Routledge Companion to Media and Gender. Routledge, 2014, pp. 157-168.
5. Eric Barendt, Freedom of Speech. Oxford University Press, 2009, pp.451-475.
6. Fundamental Rights Agency of the European Union. (2016). Violence, threats and pressures against journalists and other media actors in the EU. http://fra.europa.eu/en/publication/2016/violence-threats-and-pressuresagainst-journalists-and-other-media-actors-european
7. Gagliardone, I., Gal, D., Alves, T., & Martinez, G. (2015). Countering Online Hate Speech (UNESCO Series on Internet Freedom). Paris: UNESCO. http://unesdoc.unesco.org/images/0023/ 002332/233231e.pdf
8. Journalists under Pressure. Unwarranted interference, fear and self-censorship in Europe (2017). https://book.coe.int/eur/en/human-rights-and-democracy/7284-journalists-under-pressure-unwarranted-interference-fear-and-self-censorship-in-europe.html
9. Krause Till and Hannes Grasseger. International-Facebook`s Secret Rules of Deletion.
10. Newitz, Annalee. How Twitter Quietly Banned Hate Speech Last Year, 2016. https://arstechnica.com/information-technology/2016/01/how-twitter-quietly-banned-hate-speech-last-year/?comments=1&post=30459045
11. OSCE Representative on Freedom of the Media. (2016). New Challenges to Freedom of Expression: Countering Online Abuse of Female Journalists. Vienna. http://www.osce.org/fom/220411?download=true
12. OSCE Representative on Freedom of the Media. (2015). Recommendations following the Expert Meeting New Challenges to Freedom of Expression: Countering Online Abuse of Female Journalists. https://www.osce.org/fom/193556?download=true

13. Recommendation CM/Rec(2016)4 of the Committee of Ministers on the Declaration of the Committee of Ministers on the protection of journalism and safety of journalists and other media actors. https://www.coe.int/en/web/freedom-expression/committee-of-ministers-adopted-texts/-/asset_publisher/aDXmrol0vvsU/content/recommendation-cm-rec-2016-4-of-the-committee-of-ministers-to-member-states-on-the-protection-of-journalism-and-safety-of-journalists-and-other-media-?inheritRedirect=false
14. Recommendation CM/Rec(2018)2 of the Committee of Ministers to member States on the roles and responsibilities of internet intermediaries. https://www.coe.int/en/web/freedom-expression/committee-of-ministers-adopted-texts/-/asset_publisher/aDXmrol0vvsU/content/recommendation-cm-rec-2018-2-of-the-committee-of-ministers-to-member-states-on-the-roles-and-responsibilities-of-internet-intermediaries?inheritRedirect=false
15. Self-Regulation and “hate speech” on social media platforms, Article 19, 2018.
16. UN. (2017).UN General Assembly Resolution 75/152 on the safety of journalists and the issue of impunity (A/RES/72/175).
17. UNESCO. (2018). World Trends in Freedom of Expression and Media Development: 2017/2018 Global Report (pp. 1–201). Paris. en.unesco.org/world- media-trends-2017.
18. UNESCO. (2017). REPORT. Multi-stakeholder Consultation on Strengthening the implementation of the UN Plan of Action on the Safety of Journalists and the Issue of Impunity. Geneva: UNESCO. https://en.unesco.org/sites/default/files/report_-_multistakeholder_consultation.pdf.

**Tapşırıq**

Siz populyar sosial media şirkətinin nümayəndəsiniz. Aşağıda gördüyünüz paylaşımla bağlı sizin şirkətdən onu blok etmək tələb olunur. Fikrinizcə, bu paylaşım qara yumor hissini təcəssüm etdirən söz azadlığı nümunəsidir, yoxsa genderə əsaslanmış nifrət nitqi? Fikrinizi əsaslandırın.




**Tərcümə:** Qadınların 1\3-i fiziki zorakılığa məruz qalır. Kişilərin 2\3-ü öz işlərini pis görürlər.

**Mövzu 13. Qadınların təmsilçilikdə rolu və media**

*Gender kvotası pozitiv diskriminasiya kimi. Gender kvotasının mahiyyəti. İdarəetmədə qadınların təmsilçiliyi. Azərbaycan medisında qadınların idarəetmədə təmsilçiliyi*

Bu mözvu çərçivəsində gender bərabərliyini təmin etmək üçün irəli sürülən gender kvotasının pozitiv diskriminasiya olaraq mahiyyəti izah ediləcəkdir. Əsasən, qadınlarlın siyasi

idarəçilikdə təmsilçiliyinin təminatına, bununla da onların siyasi qərar qəbuletmə prosesinə aktiv şəkildə cəlb edilmələrinə yönələn gender kvotasının demokratik cəmiyyət quruculuğu və inklüziv inkişaf üçün vacibliyi açıqlanacaqdır. Kvota sisteminin tətbiqi zamanı üzə çıxan problemlər, gender kvotası təmin edilərkən keyfiyyətin kəmiyyətə qurban verilməməsinin önəmli olduğu vurğulanacaqdır. Kvota sistemini müxtəlif sahələrdə tətbiq edən ölkələrin təcrübəsi təqdim ediləcək, Azərbaycanda qadınların siyasi təmsilçiikdə iştirakı ölkənin bu istiqamətdə qoşulduğu beynəlxalq sənədlər və konvensiyalar prizmasından xüsusi olaraq incələnəcəkdir.

Azərbaycan mediasında qadınların işçi qüvvəsinin əksəriyyətini təşkil etdikləri təqdirdə onların media qurumlarının, jurnalist təşkilatlarının və redaksiyaların idarəetməsində və rəhbər vəzifələrdə zəif təmsil olunmalarının səbəbləri araşdırılacaq, gender bərabərliyini təmin etmək üçün kvota sisteminin tətbiqinin media muhitə verə biləcəyi töhfə müzakirə olunacaqdır.

**Ədəbiyyat siyahısı**


1. Bauwel, S. (2017). Gendered Television Genres, The Same Old Song: A Case Study of Gendered Television Genres in the North of Belgium.
2. Handbook on Implementation of Recommendation (2013)1 of CM on gender equality and media. https://rm.coe.int/1680590558
3. İbrahimbəyova R., Axundova S., Mikayılova Ü. Qadınlar siyasətdə. Bakı: 2008. 168 səh.
4. Ross, K., & Padovani, C. (2017). Gender Equality and the Media. New York: Taylor & Francis.


**Tapşırıq:**

TV və radioda genderlə bağlı verilişin hazırlanması.

Tələbələr müxtəlif qruplara bölünürlər və hər qrup verilişin aşağıdakı komponentlərindən birini hazırlayır.

1. "Azərbaycanda siyasi idarəetmədə qadınlar necə təmsil olunublar?" sualına cavab almaq üçün voks populi keçirmək və onun nəticələrini ümumiləşdirmək.
2. Yüksək vəzifə tutan qadın və kişilərin statistik göstəricilərini araşdırmaq.
3. İdarəetmədə qadınların ən az təmsil olunduqları, ən çox təmsil olunduqları və kişilərlə bərabər səviyyədə təmsil olunduqları sahələri araşdırmaq.
4. Gender problemləri üzrə ekspert dəvət etmək. Yuxarıdakı araşdırmalar əsasında ekspertə ünvanlanacaq sualları hazırlamaq.

## Mövzu 14. Seçkilərin işıqlandırılması və gender amili

*Seçki kampaniyaları zamanı media çərçivələnmənin önəmi, qadın namizədlərə tətbiq olunan gender yanaşmalar, seçkilər zamanı mediada gender balansının gözlənilməsinin vacibliyi*

Seçkilər medianın daha çox incələdiyi siyasi hadisələrdəndir. Social media nə qədər inkişaf etsə də, insanların böyük əksəriyyəti hələ də seçkilər zamanı ənənəvi medianın ötürdüyü informasiya və təqdimata üstünlük verir. Bu mövzu çərçivəsində seçkilər zamanı medianın gender perspektivindən nə kimi önəmli rol oynadığı, gender balansının gözlənilməsinin vacibliyi izah olunacaqdır. Seçki kampaniyalarında gender stereotiplərinin qadın namizədlərə necə proyeksiya olunduğu açıqlanacaqdır. Qadınların siyasi həyatda fəal iştirak etdikləri hallarda belə mediada az görünmələrinin və onlara cinsiyyətçi yanaşma səbəbləri təhlil olunacaqdır. Seçkilərdə gender bərabərliyini təmin etmək tətbiq olunan strategiyalara, bu sahədə əldə olunan ən yaxşı təcrübələrə nəzər salınacaqdır.

**Ədəbiyyat siyahısı**

1. Media and Elections. http://genderlinks.org.za/what-wedo/media/training/thematic-training/gender-media-and-elections/Media, Elections and Gender. Study on media coverage of elections with a specific focus on gender equality. Council of Europe study DGI(2017)10.
2. Powerful Media Men, Sexual Misconduct and Sexism in Election Coverage | AM Joy | MSNBC https://www.youtube.com/watch?v=x6SOtVg6tXw


**Tapşırıq**

Parlament seçkiləri zamanı ölkə mediasında qadın namizədlər barədə yazıları tapın. Bu yazıları gender aspektindən təhlil edin.

## Mövzu 15. Gender bərabərliyi və inklüziv inkişaf

*İnklüziv inkişaf və onun indeksləri, inklüziv inkişaf artımına gətirən amillər, gender bərabərliyinin inklüziv inkişafa təsiri, Azərbaycanın inklüziv inkişaf göstəriciləri, inklüziv inkişafın gender simasını müəyyənləşdirən media yanaşması*

"Gender bərabərliyi və media azadlığı" kursunun yekun mövzusu tədris semestri ərzində müzakirə olunan mövzulardan öyrənilənlər əsasında gender bərabərliyinin dövlətlərin və millətlərin inklüziv inkişafına təsirini başa düşməkdir. Tələbələr inklüziv inkişaf və onun indeksləri, inklüziv inkişafa səbəb olan amilllərlə tanışlıqdan sonra ötən əsrin sonlarında qadın hüquqlarının praktik təminatının dünya çapında daha mükəmməl cəmiyyətlərin formalaşmasına necə gətirib çıxardığını öyrənəcəklər. Bu zaman qadınların sosial, iqtisadi və siyasi sahələrdə bərabər iştirakının tək özlərinə deyil, əslində, bütün cəmiyyətə və millətə verə biləcəyi fayda açıqlanacaqdır. Əksər hallarda ailəni mövcud resurslarla idarə etdiklərinə görə mümkün çətinliklər və onların həlli yolları barədə daha məlumatlı olan qadınların qərar qəbuletmə prosesinə cəlb olunmalarının dayanıqlı inkişafa verə biləcəyi töhfə təhlil ediləcəkdir.

Kurs iştirakçıları gender bərabərliyinin hədəf deyil, inklüziv inkişafın təmin edilməsində mütləq şərtə çevrildiyini öyrənməklə yanaşı, Azərbaycanın inklüziv inkişaf göstəricilərini təhlil edəcək, inklüziv inkişafın gender simasını müəyyənləşdirən media yanaşması ilə tanış olacaqlar.

**Ədəbiyyat siyahısı**

1. "Azərbaycan 2020: Gələcəyə baxış". İnkişaf Konsepsiyası. https://president.az/files/future_az.pdf
2. Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin Pekin Fəaliyyət Platforması (1995) və Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 23-cü xüsusi sessiyasının (2000) yekun sənədinin icrası ilə bağlı Milli Hesabatı. http://gender-az.org/doc/az/organization/gen_gov/pekin.html
3. Gender Factors and Inclusive Economic Growth: The Silent Revolution, Laura Cabeza-García, 2018.
4. Mainstreaming the Gender Perspective into Social Development, Ronald Wilman, 2010.
5. The 2030 Agenda for Sustainable Development, UN Initiative, 2015.

**Tapşırıq**

Dünya İqtisadi Forumunun Azərbaycan barədə son inklüziv inkişaf indeksi ilə tanış olun.  Yerli KİV-i izləyərək son bir ayda bu göstəriciləri dəstəkləyən və əksini göstərən ictimai gündəm cərəyanlarını təhlil edin.

Mənbə:
http://reports.weforum.org/the-inclusive-development-index-2018/?doing_wp_cron=1535349408.3386399745941162109375